

# Tanınmış politoloq Qazaxıstana diqqət ayırmağa çağırdı

**Azərbaycan "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu ilə Qazaxıstanın "Eurasia News" agentliyinin rəhbəri Nurqali Jusipbay arasında qarşılıqlı əməkdaşlıq haqqında memorandum imzalanıb. Bu barədə "Atlas" Araşdırmalar Mərkəzindən verilən xəbərdə deyilir ki, Əməkdaşlıq memorandumu çərçivəsində iki ölkə arasında informasiya mübadiləsi həyata keçiriləcək, qarşılıqlı maraq doğuran xəbərlərin daha böyük auditoriyaya çatdırılmasına çalışılacaq. Xəbərlərdə və şərhlərdə iki ölkənin milli və təhlükəsizlik maraqlarına, o cümlədən ərazi bütövlüyünə xüsusi diqqət yetiriləcək, bu səpgili yazılara və şərhlərə önəm veriləcək. Azərbaycan və Qazaxıstan arasındakı siyasi, iqtisadi əlaqələrin gücləndirilməsi, həmçinin ortaq layihələrin reallaşdırılması istiqamətləri araşdırılacaq və bu yöndə hesabatlar hazırlanacaq.**

Elxan Şahinoğlu bildirib ki, Qazaxıstan bizə qardaş dövlətdir. Ancaq son zamanlar Ermənistan bu ölkədə fəallaşmağa çalışır. Ona görə də qardaş ölkədə düşmənin əl-qol açmasına yol verə bilmərik. Boşluqları doldurmağa ehtiyac var.

❑ **E.SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# "Bitcoin" kəskin ucuzlaşıb

**"Bitcoin" 10%-dən çox ucuzlaşaraq, son iki həftənin minimumuna enib.**

"APA-Economics"in məlumatına görə, "Bitcoin" ötən həftənin cümə günündən bu günədək 11,1% ucuzlaşaraq 9 855 dollara bərabər olub ki, bu, iyulun 2-dən etibarən müşahidə edilən ən aşağı göstəricidir. Sözügedən kriptovalyuta bu gün illik müqayisədə 10,4% ucuzlaşıb.

Buna baxmayaraq, hazırda birjalarda "Bitcoin"in məzənnəsi 10 200 dollara bərabərdir.

Qeyd edək ki, bu ilin iyun ayında "Facebook"un özünün kriptovalyutasını dövriyyəyə buraxılması elanından sonra "Bitkoin" 55% bahalaşaraq son 18 ayın maksimumuna bərabər olub - 14 000 dollar.

# Emal üçün Azərbaycana idxal olunan propan gömrük rüsumundan azad edilib

**Təmizliyi 99 %-dən az olmayan propan istisna ilə, Azərbaycana gətirilən propana tətbiq edilən 15 faiz idxal gömrük rüsumu ləğv edilib.**

APA-nın məlumatına görə, Nazirlər Kabineti bununla bağlı "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişikliklər edib.

Beləliklə, emalın spesifik prosesləri və proseslərdə kimyəvi çevrilmələr, o cümlədən digər məqsədlər üçün təmizliyi 90 %-dən çox, lakin 99 %-dən az olan propan 15 faiz idxal gömrük rüsumundan azad edilib. Təmizliyi 99 %-dən az olmayan propan üçün tətbiq edilən 15 faiz idxal gömrük rüsumu isə qüvvədə qalıb.

Bu qərar dərc edildiyi gündən 30 gün sonra, yəni avqustun 14-də qüvvəyə minir.

## Başsağlığı

**Görkəmli ziyalı, ictimai-siyasi xadim, istedadlı memar, Azərbaycan Reklamçılar İttifaqının sədri Hacıəmi Atakişyevin ölüm xəbəri məni dərindən kədərləndirdi. H.Atakişiyev AMİP-in qurucularından biri kimi ölkədə çoxpartiyalı sistemin formalaşamasında və inkişafında misilsiz xidmətlər göstərib. O, uzun müddət partiyanın Siyasi Şurasında təmsil olunub. H.Atakişiyev səmimi dost, əqidəsinə sadiq AMİP-çi və xeyirxah bir insan kimi əziz xatirəsi dostlarının və silahdaşlarının qəlbində daim yaşayacaqdır.**

**Mən Hacıəmi Atakişiyevin vəfatından bir daha dərindən kədərləndiyimi bildirir, məhrumun ailəsinə dərin hüznlə başsağlığı verirəm. Allah rəhmət eləsin.**

**Etibar Məmmədov**
**AMİP-in Fəxri Lideri**

# "Keşikçi dağdakı insident qınsa müddət ərzində aradan qaldırılıb" - DSX



**Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzi Keşikçi dağda baş verən hadisə haqqında məlumat yayıb. "Report" xəbər verir ki, məlumatda deyilir: "İyulun 14-də saat 14:50 radələrində DSX-nin Sərhəd Qoşunlarının "Şəmkir" sərhəd dəstəsinin "Keçikçi qala" sərhəd zastanvansının xidməti ərazisində Gürcüstan vətəndaşları tərəfindən Azərnbayncan sərnhəd naryadına qarşı insident törədilib.**

Hadisə ilə əlaqədar təxirəsalınmaz tədbirlər görülməklə insident qınsa müddət ərzində aradan qaldırılıb və DSX-nin şəxsi heyəti tərənfindən ərazidə təhlükənsizlik tədbirləri təmin edilib.

Azərbaycan və Gürcüstan sərhəd nümayəndələri arasında görüş keçirilib, baş vermiş hadisə birgə araşdırılıb, gələcəkdə bu kımi halnlanra yol verilməməsi üçün görülməli olan tədbirlər müzakirə edilnib".

Azərbaycan Xarici İşlər Nazirliyi də Keşikçi dağda baş verən hadisə haqqında məlumat yayıb.

Məlumatda deyilir:

"14 iyul 2019-cu il tarixində Gürcüstandan olan bir qrup şəxsin Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozaraq Azərbaycan ərazisində yerləşən Keşikçi dağ mağaralar kompleksi yaxınlığında xidmət aparan sərhəd naryadına hücum etməsi və onları nalayiq ifadələrlə təhqir etməsi ilə bağlı Gürcüstanın ölkəmizdəki səfiri Xarici İşlər Nazirliyinə çağırılıb və məsələ ilə bağlı müvafiq izahat istənilib.

Təəssüf hissi ilə qeyd edirik ki, bu cür hərəkətlərə yol verilməsi Azərbaycan və Gürcüstan arasında mövcud olan strateji tərəfdaşlıq münasibətlərinin ruhuna tamamilə ziddir və bunu iki ölkə arasında qarşıdurmaya yönəlmiş təxribat kimi qiymətləndiririk.

Xarici İşlər Nazirliyi bu insidentin araşdırılaraq müvafiq tədbirlərin görülməsi və görülən işlərə dair XİN-in məlumatlandırılmasını qarşı tərəfdən tələb edib".

Gürcüstan Sərhəd Polisinin sədr müavini Teymuraz Kupatadze də Keşikçi Dağı Məbəd-Kompleksində baş verən insidentə aydınlıq gətirib.

"Report" xəbər verir ki, o, jurnalistlərə azərbaycanlı sərhədçilərin məbəddən ikonaları götürməsinin səbəbini açıqlayıb.

Gürcüstan rəsmisi deyib ki, Azərbaycan tərəfi ikonaların zədələnməməsi üçün məbəddən götürüb: "Gürcüstan və Azərbaycan tərəfləri arasında keçirilən görüşdən sonra məlum oldu ki, azərbaycanlı sərhədçilər məbədin divarlarındakı ikonaları onları mühafizə etmək məqsədilə götürüb. Onlar bildirdilər ki, hava şəraiti pisləşdiyindən külək və yağış ikonalara zərər vura bilərdi. Buna görə də azərbaycanlı sərhədçilər ikonaları götürərək gürcü həmkarlarına təqdim ediblər".

Gürcüstanın Daxili İşlər Nazirliyi (DİN) Azərbaycanla sərhəddə yerləşən Keçikçi Dağı Məbəd-Kompleksi ilə bağlı ölkə ictimaiyyətinə müraciət edib.

DİN vətəndaşları Gürcüstan və Azərbaycan arasında sərhədin delimitasiyası üzrə komissiyanın işinə mane olmamağa çağırıb.

Müraciətdə qeyd olunub ki, iyulun 14-də sərhəddə baş verən kiçik insidentlə bağlı araşdırma aparılır: "Biz cəmiyyəti və vətəndaş qruplarını razılığın mümkün qədər tez əldə olunması üçün delimitasiya üzrə komissiyanın işinin sakit mühitdə keçirilməsinə imkan verməyə çağırırıq".

# Başqasının yerinə müəllimliyə imtahan verən 2 şəxs aşkarlandı

**"Müəllimlərin işə qəbulu üzrə keçirilən test imtahanlarında ötən 6 gün ərzində 15 mindən artıq müəllim imtahan verib".**

APA-nın xəbərinə görə, bunu Təhsil Nazirliyinin İnsan Resursları Mərkəzinin müdir əvəzi Murad Camalzadə bildirib. Onun sözlərinə görə, bu müddət ərzində qayda pozuntusu edən 5-ə yaxın müəllimin nəticəsi ləğv edilib:

"Qayda pozuntusu əvvəlki illərlə müqayisədə azalıb. Qayda pozuntusu edən şəxslərə bir neçə dəfə xəbərdarlıq edilir. Daha sonra həmin şəxsin yeri dəyişdirilir ki, narahatlıq yaratmasın, köçürmə halı olmasın. Yerin dəyişməsi ən çox istifadə etdiyimiz iltizam qaydasıdır. Elə hallar olur ki, imtahana gələn şəxs zala qulaqcıqla daxil olur, bu, aşkarlanarsa, hadisə aktlaşdırılır və nəticə ləğv edilir. Eyni zamanda qadağan olunan texniki vasitələrdən istifadə etmək istəyənlər də olur ki, bu zaman nəticə ləğv edilir".



M.Camalzadə bildirib ki, iyulun 15-də keçirilən imtahanlar zamanı başqasının yerinə imtahan vermək istəyən 2 şəxs aşkarlanıb: "Təbii ki, bunun qarşısı alınıb, sənədləşmə aparılıb və nəticələr ləğv edilib".



# Rüşvətə görə tutulan hakimin vəsatəti təmin edilmədi

**Şəki Ağır Cinayətlər Məhkəməsində Zaqatala Rayon Məhkəməsinin keçmiş hakimi Arif İsmayılov, onun məsləhətçisi Şahid Allahverdiyev və Vəkillər Kollegiyasının üzvü olmuş Məmməd Yaqubovun cinayət işi üzrə məhkəmə prosesi başlayıb.**

APA-nın məlumatına görə, hakim Nahid Mirzəyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Prosesdə Arif İsmayılovun və Şahid Allahverdiyevin vəkilləri vəsatət verərək müvəkkilləri barəsində olan həbs qətimkan tədbirinin dəyişdirilməsini xahiş ediblər.

Vəsatət təmin olunmayıb. Məhkəmə baxışı iyulun 24-ə təyin edilib.

Qeyd edək ki, qanunvericiliyin tələblərini kobud pozmasına və korrupsiyaya şərait yaradan hallara görə səlahiyyətlərinə xitam verilən Zaqatala Rayon məhkəməsinin hakimi Arif İsmayılov barədə materiallar Məhkəmə-Hüquq Şurasının qərarına əsasən, cinayət xarakterli korrupsiya halına hüquqi qiymət verilməsi üçün Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə göndərilib.

Materiallar üzrə cinayət işi başlanıb və istintaqın gedişində Zaqatala Rayon Məhkəməsinin hakimi Arif İsmayılov və məsləhətçisi Şahid Allahverdiyevin məhkəmənin icraatında olan mülki iş üzrə tərəflə qeyri-prosessual münasibətlər yaradaraq rüşvət tələb etmələri müəyyən edilib.

Bununla əlaqədar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən A. İsmayılova Cinayət Məcəlləsinin 311.1 (rüşvət alma), Ş. Allahverdiyevə isə 32.4, 312.1-ci (rüşvət verməyə təhrik etmə) maddələri ilə ittiham elan olunmaqla, barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Bu iş üzrə Vəkillər Kollegiyasının üzvü olmuş Məmməd Yaqubova da ittiham verilib. Onun barəsində həbs qətimkan tədbiri seçilməyib.

YENİ MÜSAVAT
N 148 (7318) 16 iyul 2019

# "Avropa İttifaqı ilə saziş payızda imzalana bilər"

## Ekspert: "Sənədin lazımi tələblərə cavab vermədən imzalanması tərəflərin xeyrinə olmaz"

**Ötən həftə Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun Azərbaycana səfəri oldu. Azərbaycan prezidenti və bir sıra rəsmilərlə görüşən D.Tusk Azərbaycanla Aİ arasında imzalanacaq tərəfdaşlıq sazişinin hazırlanması ilə bağlı aparılan danışıqların başa çatmaq üzrə olduğunu bəyan etdi.**

Bəs Tuskun Bakı səfəri Azərbaycanla Avropa İttifaqı arasında sazişlə bağlı danışıqlara necə təsir göstərəcək? Danışıqların hələ də yekunlaşmaması nədəndir? Bu il sazişin imzalanması reallaşa biləcək?

**Politoloq Elşən Mustafayev** "Yeni Müsavat"a bildirdi ki, Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun səfəri tək Azərbaycana planlaşdırılmamışdı: "Bu səfər hamının bildiyi kimi regiona, yəni eyni zamanda Gürcüstana və Ermənistana da oldu. Azərbaycan bu günə kimi Avropa İttifaqı ilə sazişi imzalamasa da bu istiqamətdə danışıqlar prosesi və müxtəlif sahələr üzrə əməkdaşlıqlar davam edir. Sözsüz ki, Avropa İttifaqı Şurasının prezidenti ilə sazişin imzalanmasına əngəl olan səbəblərlə bağlı da danışıqların olması mümkündür. Amma hesab edirəm ki, çərçivə sazişinin imzalanması tək bu səfərlə irəli gedə bilməz. Ən azından tərəflərin razılaşdıra bilmədikləri bir sıra məsələlər öz həllini tapmalıdır ki, proses yekunlaşmağa doğru getsin. Diqqət etdinizsə, hətta Tuskun özü belə, sazişin nə zaman imzalanacağı barədə dəqiq tarix söyləyə bilməyəcəyini dedi. Ümumiyyətlə, bu sazişin müddəaları hələ öncədən ictimaiyyət üçün kifayət qədər qapalı olub. Hər iki tərəf hər dəfə ümumi məlumatlar verməklə kifayətləniblər. Düşünürəm ki, ola bilsin, yekun razılaşmadan sonra sazişin tam mətnini görə bilərik. Hələ may ayında xarici işlər naziri Elmar Məmmədyarov danışıqlarda müddəaların 90 faizinin razılaşdırıldığını, yerdə qalanlar üzərində isə işlər getdiyini bildirmişdi. Təxminən eyni fikri Avropa İttifaqı Genişləndirmə Komissarı Yohannes Han da söyləyərək bir sıra məqamlarla bağlı danışıqların davam etdiyini və payıza qədər razılaşdırıla biləcəyinə ümid etdiyini bildirmişdi. Bir sıra Avropa İttifaqı nümayəndələrinin zaman-zaman verdiyi açıqlamalardan belə qənaətə gəlmək olur ki, razılaşdırılmayan məqamların içində vətəndaş cəmiyyəti, insan haqları, məhkəmə hüquq islahatları ilə bağlı məsələlər də xüsusi yer tutur. Bu sazişin lazım olan tələblərə cavab vermədən imzalanması əslində işin xeyrinə olmaz. Bu halda həm Azərbaycan, həm də Avropa İttifaqı üçün bu sazişin heç bir əhəmiyyəti olmaz. Bildiyim qədər sənəd imzalanandan sonra Avropa İttifaqına daxil olan bütün dövlətlərin parlamentləri ayrı-ayrılıqda ratifikasiya etməlidirlər ki, həmin zaman ciddi problemlər yaşana bilər. Ona görə də hesab edirəm ki, Azərbaycan indiyədək razılaşdıra bilmədiyi müddəaları maksimum şəkildə Avropa İttifaqı standartlarına uyğun razılaşdırarsa, həmin andan qısa müddət sonra bu sənəd imzalanacaq".



❑ **Etibar SEYİDAĞA,**

# Deputatların yay istirahəti planı-Şəki, Bakı, Naxçıvan...

## Milli Məclis üzvləri istirahəti harada və necə keçirməyi düşünür?

**İyul ayının 15-dən etibarən Milli Məclisin deputatları tətilə çıxır. Nizamnaməyə əsasən, deputatların tətil müddəti avqustun 30-dək davam edəcək. Bəs deputatlar bu yay istirahətini harada və necə keçirməyi düşünür?**



Fazil Mustafa



Araz Əlizadə



Aydın Mirzəzadə



Elman Nəsirov

Mövzu ilə bağlı "Yeni Müsavat" bir neçə deputat arasında sorğu keçirib.

**Millət vəkili Fazil Mustafa** bu yayı da Bakıda keçirəcəyini deyib: "Həmişə olduğu kimi, bu yay istirahətini də əsasən Bakıda, dəniz kənarında keçirəcəm. Bir-iki gün hansısa tədbirlə bağlı kənara çıxara bilərəm, amma qeyd etdiyim kimi, əsasən paytaxtda olacam". **Deputat onu da qeyd etdi ki, parlamentin Həmkarlar İttifaqı da deputatların yay istirahəti üçün güzəştli dəstəklər verir:** "Parlamentin də Həmkarlar İttifaqı var və qurum fəaliyyət göstərir. Bəzən qurum deputatların prestijli məkanlara getmək məsələsinə köməklik göstərir, müəyyən güzəştlərlə dəstək verir".

Deputat Araz Əlizadə isə yay istirahətini ancaq öz evində keçirəcəyini açıqladı.

**Deputat Aydın Mirzəzadə də digər həmkarları kimi yay istirahətini ölkədə keçirəcəyini dedi:** "Adətən yay istirahətimi Azərbaycanda keçirirəm. Olur ki, bəzən istirahətdə Mingəçevirə də gedirəm. Dəvət olanda ailəmlə birlikdə bölgələrə də çıxıram".

Deputat Asim Mollazadə də yayı Bakıda keçirəcəyini bildirib.

**Deputat Elman Nəsirov isə yay istirahəti zamanı Şəkidə olacağını açıqladı:** "Bildiyiniz kimi, bu günlərdə Şəkidəki Xan Sarayı UNESCO Ümumdünya İrs Siyahısına əlavə edildi və Şəkinin əzəməti daha da böyüdü. Bu yaxınlarda mənim də yolum Şəkidən düşdü və onun təbiəti çox xoşuma gəldi. Doğrudur, bundan əvvəl də Şəkidə olmuşdum. Amma bu dəfə bu şəhər məni daha da valeh etdi. Buna görə düşünürəm ki, yay istirahətimdə ailəmlə birgə Şəkiyə gedim".

**Deputat qeyd etdi ki, yay istirahətini adətən bölgələrimizdə keçirir:** "Çünki adətən il boyu xarici ölkələrdə səfərlərdə, tədbirlərdə oluruq. Buna görə də istirahəti bölgələrimizdə keçirməyə üstünlük verirəm".

**Deputat Fəzail Ağamalı isə artıq Naxçıvana istirahətə yollandığını açıqlayıb. Deputat bu barədə öz facebook səhifəsində məlumat paylaşıb:** "Hər il artıq ənənə şəklini alan Naxçıvan səfərimdə muxtar respublikanın yüksək peşəkarlıqla restavrasiya edilən təkrarsız tarixi abidələrini - Nuh, Möminə Xatun və Yusif İbn Quseyr türbələrini, Xan Sarayını, Əlincə qalası və Əlincəçay xanəgahını, Qarabağlar türbəsini ziyarət etməklə yanaşı, mütləq mənada muxtar respublikanın incisi olan və dəniz səviyyəsindən 2200-2500 metr hündürlükdə yerləşən Batabata getməyi vacib sayıram. Bura getməklə təkcə bu əsrarəngiz və təkrarsız təbiət möcüzəsinin gözəlliklərindən zövq almaq, buz kimi sərin "Zor" bulağından doyunca su içməklə kifayətlənmirəm, həm də doğulub böyüdüyüm tarixi Azərbaycan yurdu olan Zəngəzur mahalının, onun bir parçası kimi Sisian və doğma kəndim Şıxların sərin mehlə Batabata doğru axıb gələn havasını acgözlüklə udmaq istəyirəm.

Bu səfərimdə də Batabata getdim və qərara aldım ki, onun uca yerlərindən birindən doğma türk yurduna göz gəzdirim, havasını ciyərim dolusu udum və onunla təmasda olum..."

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Sarı zolaq rejimi



**Samir SARI**

**Paytaxtda maşın sürənlər mühəqqəq baş yollardakı sarı zolaqların yenidən boyandığını görüblər, amma çoxu bunun səbəbini hələ bilmir.**

Düzü, yenilənmiş sarı zolağı mən də görmüşdüm, amma onun nə münasibətlə yeniləndiyini bilmirdim. Dünən saytlarda oxudum ki, iyulun 20-dən 28-nə qədər Bakıda Avropa gənclər festivalı keçiriləcək və bu sarı zolaqlar o festivalın iştirakçılarının hoteldən tədbirlər keçirilən məkanlara, oradan da geriyə sərbəst gəlib-getmələri üçündür.

Qanqaraldıcı yenilikdir, amma bu sarı zolaq bizi qorxuda bilməz. Biz nə zolaqlar görmüşük! Həm də təkcə sarı zolaq yox, biz qara zolaqlar da görmüşük. Bunu da ötüşdürərik.

Amma ortada 40 manatlıq cərimə söhbəti adamı əndişələndirir. Çünki bəzən adam uzun kilometrajlı tıxaclarda qalır, baxır ki, avtomobillər düzülüb dal-dala, amma sarı zolaq boşdur, onda şeydan adamı yoldan, daha dəqiqi, qara zolaqdan çıxarır, deyir, işə gecikirsən, çıx sarı zolağa, fitillə get. Bir dözürsən, iki dözürsən, axırda görürsən ki, şeytan olanda nə olar, düz deyir. Elə təzəcə sarı zolağa adlayıb, 30-40 maşın qabağa düşmək istəyirsən ki, DYP özünü yetirir. Protokol, cərimə, get, ödə.

Bəzən adamın qəlbinə toxunan başqa məqamlar da olur. Bir də görürsən, N qədər maşın keçdi sarı zolağın içinə, şütüyüb getdilər və onlara bir söz deyən olmadı, amma sən qanunpərəst, qayda pozmayan sürücüsən, onlar kimi etmirsən, gözləyirsən, nəticədə getdiyin yerə gecikirsən, qanın qaralır. Özünü məğmun hesab edirsən. Beləcə, "bərkgedən" olub cərimələnirsən, bərk getmirsən, yenə cəriməyə düşürsən.

Sadəcə, budəfəki sarı zolaq haqq-hesabı bir az gözlənilməz oldu. Bundan qabaqkılar ("Eurovision", Avropa oyunları, İslam oyunları) barədə öncədən çox məlumat verirdilər, danışırdılar, hamı da sarı zolaqla bağlı qara gününü qablayırdı. Bu dəfə hazırlıqsız yaxalandıq.

Bircə təsəlli var ki, iyun ayının ortalarından bəri, tələbələrin, şagirdlərin tətilə buraxılması, bir xeyli məmurun yay tətilinə çıxması səbəbindən şəhərin yollarında seyrəklik idi, camaat evdən işə, işdən evə rahat gedib-gəlirdi. İndi belə çıxır ki, o asudəliyin bir həftəsi Avropa gənclərinin festivalına qurban gedəcək.

Bir ümid yeri odur ki, bu dəfə şəhərimizin avropalı qonaqları keçəndəfəki yarışmalarda olduğu qədər çox olmayacaq. Çox olmayacaqlarsa, onların ora-bura daşınması da çox vaxt aparmayacaq və sarı zolaqlar günün 7-8 saatı ərzində boş qalacaqlar. Yəqin ki, DYP işçiləri bunu nəzərə alacaq, nəqliyyatın hərəkətində sıxlıq və tıxaclar yarananda bizə sarı zolaqla irəliləməyə şərait yaradacaqlar. Yoxsa vallahi, o bir həftədə qədirbilən xalqımız çox əziyyət çəkər.

Bununla belə, bu məsələnin iki müsbət cəhəti var. Biri budur ki, bu minvalla yavaş-yavaş Avropaya inteqrasiya edirik, onlarda festival olur, biz gedirik, bizdə festival olur, onlar gəlirlər, arada ünsiyyət olur, mehribanlıq artır. Hətta qohumlaşma vaqiələri baş verir, çaydan keçəndə müəyyən təmaslar-filanlar da olur. Bunlar inteqrasiya məsələsində ciddi önəm daşıyır. Avropalı olmaq istəyirsənsə, paytaxtının yollarında sarı zolaqlar da olmalıdır, hələ velosiped yolları da. Bax, Almatı şəhəri Asiyanın göbəyində yerləşir, amma orada velosiped yolları var.

Sarı zolaq haqq-hesabının bir müsbət cəhəti də odur ki, sürücülər, nəhayət, intizamlı olmağı öyrənələr. Əlbəttə, burada cərimələnmək qorxusu öz rolunu oynayır. Guya almanlar bu cür intizamlı olmağı necə öyrəniblər? Onları vaxtında cərimələyə-cərimələyə intizamlı, dəqiq, dürüst olmağı öyrədiblər.

Ona qalsa, vaxt vardı, bizdə heç bir sürücü təhlükəsizlik kəmərindən istifadə etmirdi. Yol polisləri o qədər cərimələdi ki, indi hamısı quzu kimi kəmərini qurşayır. Bu sarı zolaq yasağı da bizə yavaş-yavaş yolun solunu boş qoymağı (təcili yardım və yanğınsöndürmə briqadaları üçün) öyrədəcək.

Gözləyək, iyulun 20-si gəlsin, bir həftə sarı zolağa dözək, ondan sonra yenə başlayarıq "asta sürənə imam qənim" moduna.

YENİ MÜSAVAT
N 148 (7318) 16 iyul 2019

# Zamirə Hacıyevanın 2 ay vaxtı qalır - Azərbaycana ekstradisiyası yenidən gündəmdə

## Ekspert həbsdəki bankirin həyat yoldaşının vəkillərinin dəlillərindən danışdı...

**Beynəlxalq Bankın sabiq sədri Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyevanın Azərbaycana ekstradisiyası məsələsi London Məhkəməsində 2 ay sonra yenidən araşdırılacaq. Bu müddətdə Zamirə Hacıyeva zamində olacaq. Azərbaycan hüquq-mühafizə orqanları hələ 2016-cı ilin yayında Zamirə Hacıyevanın da əri Cahangir Hacıyev kimi mənimsəmədə ittiham olunduğunu bəyan etmişdi.**



İttihama görə, Zamirə Hacıyeva və digərləri mütəşəkkil cinayətkar qruplaşma yaradıb. Qruplaşmanın Beynəlxalq Bankın talanmasında iştirak etdiyi iddia olunurdu. Ona qarşı cinayət işi başlansa da, həbsi mümkün olmayıb. O, ölkəni hələ 2014-cü ilin noyabrında - ərinin həbsindən bir neçə ay öncə, KİV-lərin Cahangir Hacıyevə hücumlarının başladığı dövrdə tərk edib. Bu səbəbdən haqqında axtarış qərarı verilib və ilkin olaraq barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilmişdi. Beynəlxalq Banka vurulan ziyanın ümumi dəyəri 211 milyon 597 min manat məbləğindədir. Məhkəmə Cahangir Hacıyevdən 63 milyon 80 min manat tutularaq, Beynəlxalq Banka verilməsi, ona məxsus olan dəyərli qol saatının və sikkə pulların müsadirə olunması barədə hökm çıxarıb. Zamirə Hacıyeva Böyük Britaniyada yaşayır, bu ölkənin Daxili İşlər Nazirliyi ona Britaniyada varlı sahibkarlar üçün nəzərdə tutulmuş viza ilə yaşamaq icazəsi verib. 3 il öncə ailənin vəkili Aqil Layıcov bankirin xanımının yaxalanıb gətirilməsi məqsədilə Londona Azərbaycandan xüsusi əməliyyat qrupu göndərildiyini demişdi. Azərbaycanda Cahangir Hacıyeva qarşı başlanmış cinayət işində Zamirə Hacıyeva də təqsirli bilinir. Amma o, istintaqdan gizləndiyi üçün barəsində həbs-qətimkan tədbiri seçilərək axtarış elan edilib. Rəsmi məlumatda bunlar öz əksini tapıb. Ona qarşı Cinayət Məcəlləsinin mənimsəmə və israfetmə (mütəşəkkil dəstə tərəfindən törədildikdə, külli miqdarda törədildikdə) maddələri üzrə ittihamlar irəli sürülüb. Bu maddəyə görə, 7 ildən 12 ilədək həbs cəzası nəzərdə tutulur.

Həbs-qətimkan tədbiri haqda qərarı baş prokurorun müavini Rüstəm Usubovun təqdimatı əsasında Bakının Nərimanov Rayon Məhkəməsi çıxarıb. Qərarda deyilir ki, Zamirə Hacıyeva əri Cahangir Hacıyevin Azərbaycan Beynəlxalq Bankının rəhbəri olduğu dövrdə bankın "Mərkəz" filialının ayrı-ayrı vaxtlarda müdirləri olan Anar Sultanov və Yusif Ələkbərov, filialın müdir müavini, daha sonra müdiri olmuş İlham Abdullayev, "Nəqliyyat" filialının müdiri Kənan Orucov, "Nərimanov" filialının müdiri Məmməd Cahangirov, eləcə də onun yaxın dostu Azad Cavadov və digərləri ilə mütəşəkkil cinayətkar qruplaşma yaradıb. Qruplaşmanın Beynəlxalq Bankın "talanmasında" iştirak etdiyi iddia olunur. Zamirə Hacıyeva və ailə üzvlərinin mənimsənildiyi iddia edilən pullarla təyyarə biletləri, zinət əşyaları alındığı, təhsil haqlarının ödənildiyi, Avropanın dəbdəbəli istirahət mərkəzlərində istirahət etdikləri, gözəllik salonlarında, restoranlarda xərclədiyi bilinir.

Bir neçə gün əvvəl London məhkəməsində Azərbaycan hüquq-mühafizə orqanlarının tələbi ilə Zamirə Hacıyevanın ekstradisiyası məsələsinə baxılıb. APA-nın London müxbirinin verdiyi xəbərə görə, keçirilən məhkəmə prosesində Birkbeck Universitetinin professoru Bill Villiam Bovring şahid qismində çıxış edib. O, 26 iyunda məhkəmədə gizli şahid qismində çıxış edən azərbaycanlı kimi Azərbaycan məhkəmə sistemini tənqid edib, insan haqları sahəsində problemlər olduğunu iddia edib. O, Azərbaycanda qadınlar üçün nəzərdə tutulan cəzaçəkmə müəssisələrində şərtlərin yaxşı olmadığını qeyd edib. Azərbaycan hökumətinin iddiasını müdafiə edən Helen Malcolm isə Azərbaycanda məhkəmə sistemi və insan haqları mövzusunda gedən islahatlar haqqında məlumat verib. O, şahid qismində çıxış edən Bill Villiamın Azərbaycanda 2005-ci ildə səfərdə olduğunu, qadın cəzaçəkmə müəssisəsinə isə ümumiyyətlə baş çəkmədiyini bildirib. Helen Malcolm şahidin Azərbaycanda hər hansı məhkəmə prosesində iştirak etmədiyini də deyib. Hakim Emma Arbuthnot isə növbəti məhkəmə prosesini sentyabrın 26-na təyin edib. O, Zamirə Hacıyevanın zaminə buraxılma şərtlərini yüngülləşdirib. Belə ki, Zamirə Hacıyeva bundan əvvəl hər gün 9:00-dan günorta saatlarınadək Londonun "Charing Cross" polis stansiyasına baş çəkməli idi. Hakim günləri azaldaraq, Hacıyevanın polis stansiyasına həftənin çərşənbə axşamı və cümə günləri getməsinə qərar verib.

Yada salaq ki, 8 noyabr 2018-ci ildə Kral Ədalət Məhkəməsində keçirilən iclas sonrasında Zamirə Hacıyeva bəzi şərtlərlə zaminə buraxılmışdı. Bu şərtlərdən biri isə odur ki, Z.Hacıyevanın pasportu polisdə saxlanılmalıdır. Bir vaxtlar Azərbaycanın zəngin ailələri sırasında ilk yerlərdə adları çəkilən Cahangir və Zamirə Hacıyevlərin günü hazırda məhkəmələrdə keçir. Zamirə Hacıyeva Londonda, Cahangir Hacıyev isə Bakıda hakimlərin suallarını cavablandırmaq məcburiyyətindədir. Cahangir Hacıyev bundan əvvəl də hakim qarşısına çıxarılıb və barəsində 15 il müddətinə azadlıqdan məhrumetmə cəzası çıxarılıb. Hazırda o, yeni ittihamlar üzrə sorğu-sual olunur. Ölkədən milyardlarla pulun çıxarılmasında ittiham edilir.

Zamirə Hacıyeva təkcə Azərbaycan hüquq-mühafizə orqanlarının tələbi ilə deyil, həmçinin Britaniyada ötən il ilk dəfə tətbiq edilən "İzahedilməz Sərvət Sərəncamı" (UWO) çərçivəsində məhkəməyə çəkilib. O da 2018-ci ilin sonunda London məhkəməsində varidatı ilə bağlı sorğu-sual edilib. Xanım Hacıyevaya varidatın mənbəyini açıqlamaq üçün vaxt verilib.

Zamirə Hacıyeva 2018-ci ilin sonunda İngiltərənin paytaxtı Londonda saxlanılıb və sonradan girov müqabilində zaminə buraxılıb. 55 yaşlı Zamirə Hacıyeva Britaniyada ilk dəfə tətbiq edilən "İzahedilməz Sərvət Sərəncamı" (UWO) çərçivəsində həbs olunmuşdu. Bu sərəncama əsasən, o, var-dövlətini hansı mənbədən əldə etdiyini açıqlamalıdır. Zamirə Hacıyeva 10 il ərzində Londonun məşhur dükanı "Harrods"da 16 milyon funt sterlinq xərcləyib. Bu, gündə 4 min funtdan çox xərcləmə deməkdir. O, Londonda alış-verişləri üçün ödənişi ərinin bankının 35 ədəd kredit kartı ilə edib. 7 il əvvəl Britaniyanın Virgin Adalarında mənzillənən bir şirkət Londonun qərbində "Harrods" alış-veriş mərkəzinin yaxınlığında bir evə 11.5 milyon funt ödəyib. 2013-cü ildə Zamirə Hacıyevanın nəzarət etdiyi başqa bir şirkət Berkshire qraflığında, Ascot kəndinin yaxınlığında təmtəraqlı qolf kursu və əmlakını - "Mill Ride Golf Club"u almaq üçün 10 milyon funt xərcləyib. Rəsmi məlumatlar cütlüyün "Harrods"un bahalı avtomobil parkında iki xüsusi yerə sahib olduqlarını və Zamirə Hacıyevanın 42 milyon funta "Gulfstream G550 jet" təyyarəsini aldığını da ortaya çıxarıb. Onun ailəsinə aid olan 400 mln funt-sterlinqdən çox dəyəri olan zinət əşyaları müsadirə edilib və "Christie" auksionunda satışa çıxarılması nəzərdə tutulub. Zamirə Hacıyeva hazırda Londonda yaşayır, o, məhkəmənin tələbini yerinə yetirib xərclədiyi pulların mənbəyini açıqlaya bilməsə, həbs edilə və Azərbaycana tərəfinə təhvil verilə bilər.

**Tanınmış hüquqşünas Əkrəm Həsənov "Yeni Müsavat"a deyib ki, Zamirə Hacıyevanın sağa-sola səpələdiyi pulların bizneslə qazanılmadığı hamıya bəllidir:** "Bunda heç kimin şübhəsi yoxdur. Cahangir Hacıyevin Beynəlxalq Bankın rəhbəri olaraq aldığı əmək haqqı o sayaq yaşamağa imkan verməyib. Odur ki, vəkilləri digər dəlillərlə Zamirə Hacıyevanın Azərbaycana təhvil verilməsinin qarşısını almağa çalışırlar. Buna nə dərəcədə nail olacaqlar sualına cavab vermək çətindir. Ortada yarısı dövlətə məxsus Beynəlxalq Bankdan milyonlarla pulun talanması haqda məlumatlar, məhkəmə qərarları var. Cahangir Hacıyevin Beynəlxalq Bankda rəhbər olaraq aldığı məvacib ailəsinə Londonda bu cür pul xərcləməyə imkan verməzdi".

**Əkrəm Həsənov hazırda aktual məsələlərdən biri kimi ölkədən çıxarılan pulların geri qaytarılması məsələsinin olmasına diqqət çəkib:** "Azərbaycan tərəfi Hacıyevlərin Londondakı varidatının satılaraq pulunun ölkəyə təhvil verilməsinə cəhd etsə, İngiltərə məhkəməsi Azərbaycan dövlətindən dəlillər tələb edəcək. Bu zaman Azərbaycan dövləti 2 əsas problemlə üz-üzə qalacaq. Birincisi, bank sahəsi üzrə elementar hüquqi bilik və savadı olan kadrlar problemi var. Bu məsələdə bizdə durum nəinki Qərb, heç Rusiya standartları ilə də müqayisə edilə bilməz. Rusiyanın "Mejprombank"ının sahibi Sergey Puqaçovun London məhkəməsində uduzması da Rusiyada dövlət qurumlarında yüksək səviyyəli hüquqşünas kadrların işləməsi ilə əlaqədardır. Həmin o hüquqşünaslar London məhkəməsində sübut etdilər ki, Sergey Puqaçov "Mejprombank"ın pullarını ələ keçirib. Bu məsələni savadlı şəkildə məhkəmədə izah edib sübuta yetiriblər. Azərbaycanda bu işi o səviyyədə izah etməyi bacaran az sayda hüquqşünas var. Azərbaycandan hüquqşünasları göndərməyib xarici hüquqşünaslarla bu məsələni çözmək istəsələr, vəziyyət dəyişməyəcək. Bu zaman 2-ci və ən əsas məqam ortaya çıxacaq - Cahangir Hacıyev özü təkbaşına bu boyda qələt edə bilməzdi. Bunu hamı bilir. Beynəlxalq Bankdan o boyda pulun çıxarılmasında azı 200 nəfər iştirak edib. Mütləq Cahangir Hacıyevlə əlbir işləyənlər olub. Bu gün həmin şəxslər istintaqa cəlb olunmayıblar, onlar elə həmin Beynəlxalq Bankda və ya digər banklarda işləyirlər. Azərbaycan dövləti London məhkəməsinə müraciət etsə, bir-bir, sənədlərlə, sübutlarla isbat etməlidir ki, pullar oğurlanıb, oğurluqlara görə Cahangir Hacıyev başda olmaqla, filankəslər ədalətli məhkəmə qarşısında dayanıb cəzalarını alıblar".

**Hüquqşünas deyir ki, Beynəlxalq Bankdakı oğurluqların miqyası böyükdür və belə oğurluqların qarşılığında aparılan istintaq, həbslər çox məhdud dairədə olub. Halbuki geniş istintaq tədbirlərinə ehtiyac zərurəti bu gün də qalır:** "Bank qanunvericiliyində "banka aidiyyəti olan şəxs" anlayışı var. Bu şəxslər bankın idarəetmə orqanlarında, bankın səhmdarları, ailə üzvləridir. Onların banklardan kredit almasına hər dəfə Müşahidə Şurasının razılığı alınmalıdır. Yəni Zamirə Hacıyevaya kreditlər Müşahidə Şurasının razılığı olmadan verilə bilməzdi. Böyük ehtimalla, belə bir razılıq olmayıb. Olmayıbsa, sual ortaya çıxacaq ki, banka necə nəzarət etmisiniz? Azərbaycan Beynəlxalq Bankdan oğurlanan pulların məhkəmə qaydasında geri qaytarılmasına qalxsa, bu suallara cavab verməli olacaq. Əslində real vəziyyət də belə olub. Cahangir Hacıyevin arxasında Eldar Mahmudov dayanırdı. O da nə Maliyyə Nazirliyini, nə də Mərkəzi Bankı Beynəlxalq Banka yaxın buraxıb. Avropada isə belə izahatlar keçmir. London məhkəməsindən belə izahlarla ölkənin xeyrinə qərar almaq çətin ki, mümkün olsun".

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

Yeni Müsavat
N 148 (7318) 16 iyul 2019

# Xalq Cəbhəsinin 30 illik tarixi-necə və kimlər yaradıb?

«1989-cu ilin 16 iyulunda keçirilən təsis konfransı 8 saat davam etdi və sədrliyə üç namizəd irəli sürüldü»; Pənah Hüseyn həmin dövr və AXC-nin missiyası haqda...



**Bu gün iyulun 16-da Azərbaycan Xalq Cəbhəsinin yaradılmasının 30 ili tamam olur. 1988-ci ilin noyabrında xalq hərəkatına rəhbərlik edən gənc siyasət adamları 1989-cu ildə hədəfi, strukturu, lideri bəlli olan bir təşkilat yaratdılar.**

AXC adlanan bu təşkilatın təsisçi üzvlərindən biri də Pənah Hüseyn idi. AXC-nin ilk İdarə Heyətinin üzvü olan Pənah Hüseyn sonradan Azərbaycanın dövlət katibi, baş naziri kimi yüksək vəzifələrdə təmsil olundu.

O, 13-15 iyun 2009-cu ildə "Yeni Musavat" qəzetində “Varlıq” başlığı ilə çap olunan çox böyük həsmli yazısında 30 il əvvəlin hadisələrindən, AXC-nin yaradılmasının təfərrüatlarından bəhs edib.

**Pənah Hüseyn yazısında öncə bildirir ki, AXC-nin fəaliyyətini əks etdirən bir çox sənədlər itib və ya məhv edilib. Lakin heç də hər şey yox olmayıb:** “Məncə, AXC-nin I (təsis) konfransından bəhs edən dərc olunmuş ilk akademik material tarix elmləri doktoru Aydın Balayevin 1992-ci ildə çapdan çıxmış ”Azərbaycan milli hərəkatı: Müsavatdan Xalq Cəbhəsinə qədərki dövr" kitabındakı “Azərbaycan Xalq Cəbhəsi” məqaləsidir".

P.Hüseyn qeyd edir ki, AXC sədrliyi məsələsi konfransa xeyli qalmış Təşəbbüs Mərkəzində müzakirə olunmağa başlamış və Əbülfəz Elçibəyin namizədliyi orada İsa Qəmbər tərəfindən irəli sürülmüşdü.

Bəs AXC-nin təsis konfransı nə üçün iyulun 16-da keçirildi?

**P.Hüseyn yazır ki, AXC-nin təsis konfransının iyulda keçirilməsi ideyası birdən-birə yaranmış, qərara bağlanmış və sürətlə həyata keçirilmişdi.** “Hələ 1989-cu ilin aprel və mayında, hətta iyunun əvvəllərində AXC Təşəbbüs Mərkəzində belə bir fikir hakim idi ki, AXC-nin təsis qurultayı 1989-cu ilin payız-qışında keçiriləcəkdir. Belə hesab edilirdi ki, həmin dövrə qədər yerlərdə təşkilatlanma getməli və aşağıdan təşəbbüslə dayaq dəstələri yaradılmalı, dayaq dəstələri tərəfindən nümayəndələr seçilməli və bu nümayəndələrdən ibarət qurultay Xalq Cəbhəsini elan etməlidir. Digər ideya klassik Xalq Cəbhəsi modellərində olduğu kimi, ən ümumi, məsələn, o şəraitdə milli suverenlik və yenidənqurma hədəflərinə malik müxtəlif təşkilatların Xalq Cəbhəsi formasında birləşməsi idi. Ola bilər ki, 1988-ci ilin noyabr-dekabr günlərində bu ideya həyata keçə bilərdi. Lakin Pribaltika respublikalarından fərqli olaraq Azərbaycanın partiya və ziyalı elitası bu prosesə elə də aktiv qoşulmadı və üstəlik, 1988-ci ilin 5 dekabrında meydan dağıdılıb respublikada fövqəladə vəziyyət elan olunması, həbslər, repressiyalar fəallaşmış fərdləri və kütləni qorxutdu və yerlərdə təşəbbüs xeyli səngidi. Xalq Cəbhəsi əvvəlcə yaranmalı idi ki, proses getsin. AXC Təşəbbüs Mərkəzi yarandıqdan sonra da dayaq dəstələrinin yaradılmasının gözləniləndən ləng getməsi bir çoxlarını Xalq Cəbhəsinin yuxarıdan, mövcud qüvvələrlə elan olunması ideyasına gətirirdi. Açığı, bu ideya yetişmişdi. Lakin bəziləri üçün şablondan imtina etmək prosesi çox çətin gedirdi. Utopik olan belə təsəvvür hakim idi ki, həqiqətən xalqın cəbhəsi olmaq üçün dayaq dəstələri əhalinin, ərazi və müəssisələrin azı yarısını əhatə etməlidir ki, xalqın adından danışmaq hüququ bir növ mandat qazansın. AXC Təşəbbüs Mərkəzində özünü çox yad hiss edən Nemət Pənahlı bu məsələdə xüsusi təkid göstərirdi. Doğrudur, bir-iki dəfə gəldikdən sonra o, AXC Təşəbbüs Mərkəzindəki söhbət və danışıqları ola bilsin ki, səmimi şəkildə, sadəcə, başa düşməyərək, mənasız anlamayaraq və ya mənasız sayaraq bir daha həmin toplantılara qatılmadı. Bundan başqa, Pribaltika xalq cəbhələrinə Moskvanın münasibətinin pisləşməsi Azərbaycanda Vəzirovun da Cəbhəyə münasibətini kəskinləşdirdi. İş o həddə çatmışdı ki, təşkilatın başqa adla yaradılması təklifləri müzakirəyə çıxarıldı. Lakin əksəriyyət artıq müstəqil sosial-psixoloji şifrəyə çevrilmiş Xalq Cəbhəsi terminindən imtinanı yaxına buraxmadı”.

**Müəllif qeyd edir ki, iyulda kənar xarici təsir bu qərarın verilməsi üçün həlledici rol oynadı. Belə ki, AXC-nin təsis konfransının 1989-cu ilin iyulunda keçirilməsi Zviad Qamsaxurdiyanın adı ilə birbaşa bağlıdır:** “AXC Təşəbbüs Mərkəzi 1989-cu ilin may ayının 15-16- da Tallində Baltik xalqlarının III Assambleyasında iştiraka dəvət aldı. Mən, AXC Təşəbbüs Mərkəzinin üzvləri Nəriman Zülfüqarov və Emin Əhmədovdan ibarət heyətlə Tallində olduq. Koordinasiya Şurasının üzvü olduğum üçün heyətə rəhbər təyin edildim və Tallində bir sıra görüşlərdə AXC-ni təmsil etdim. Qeyd edim ki, assambleyanın sənədlərində bizim heyətin fəaliyyəti də öz əksini tapmışdı. Pribaltika xalq cəbhələrinin bundan əvvəl keçirilən qurultay və digər tədbirlərində Qarabağla bağlı ermənilərin maraqlarına uyğun qətnamə və bəyanatlar qəbul edilmişdi və bu assambleyanın da müvafiq sənədinin layihəsi nümayəndələrə paylanmışdı. Bizim heyətin etiraz mövqeyini əks etdirən müraciət hazırlandı və həmin müraciət ümumi iclasda oxunaraq assambleyanın materiallarına daxil edildi. Assambleyanın gedişində erməni nümayəndələr əsasən Estoniya Xalq Cəbhəsinin yaradıcısı və rəhbərlərindən olan Rafiq Qriqoryan başda olmaqla, Pribaltikada yaşayan ermənilərin təmsil edirdi və Qarabağla bağlı fəaliyyəti və diskussiyanı da əsasən onlar aparırdı. Erməni Milli Hərəkatını rəsmən İrəvandan olan yeganə (səhv etmirəmsə) Ohenasyan adlı bir nümayəndə təmsil edirdi. O vaxt Levon Ter-Petrosyan başda olmaqla, AOD-un rəhbərliyi həbs edilmişdi və Moskvada barələrində istintaq aparılırdı. Odur ki, AOD assambleyada çox populyar idi. Olduqca passiv olan həmin nümayəndə də bizimlə ciddi diskussiyalara girmirdi və şəxsi görüşlərdə mehribanlıq göstərirdi. Lakin mehribancasına da, ”sizin torpaqlar çoxdur, bizim azdır, ona görə də siz gərək razı olasınız ki, erməni xalqına bu torpaqlar verilsin, siz türklər demoqrafik yolla sürətlə çoxalırsınız, ona görə könüllü olaraq Ermənistandan getməlisiniz" kimi açıq-saçıq fikirlərini dilə gətirməkdən çəkinmirdi. Daha çox nümayəndə ilə təmsil edilən Gürcüstan Xalq Cəbhəsi ilə daha sıx tanışlıq quruldu.

1989-cu il iyunun sonunda məhz mənimlə Tallində tanış olan Gürcüstan Xalq Cəbhəsinin üzvünün xətti ilə bizə Tiflisdə görüş keçirmək dəvəti gəldi. Gürcüstan Xalq Cəbhəsi orada öz təsir gücü və imkanlarına görə hətta ikinci və üçüncü belə deyildi. Prosesləri əsasən Zviad Qamsaxurdiyanın rəhbərlik etdiyi dəyirmi masa idarə edirdi və açıqca görünürdü ki, Zviad və digərləri Gürcüstan Xalq Cəbhəsinin təşəbbüsçü və təşkilatçısı olan bu tədbirin alınmasında maraqlı deyil. Zviad Qamsaxurdiya ilk andan tədbirdə sabotaj mövqeyi tutdu... Qamsaxurdiya Şəki-Zaqatalanı “qanunsuz yolla və ədalətsizcəsinə Azərbaycana verilmiş gürcü torpaqları” adlandırdı. Hikmət Hacızadə, Zərdüşt Əlizadə və mən kəskin etiraz etdik.

... Bizimkilərin çıxışlarından sonra bərabər səviyyəyə və qarşılıqlı hörmətə keçən müzakirədə AXC və Gürcüstan Xalq Cəbhəsi və ona daxil olan 7 partiya arasında əməkdaşlıq sazişinin imzalanması gündəmə gəldi. Qamsaxurdiya açıq-aydın cığallığa keçdi və sonda ondan yapışdı ki, AXC hələ təsis olunmayıb, sadəcə, təşəbbüs qrupudur, heç kimi təmsil etmir və sənədi imzalamaqdan imtina etdi. Sənəd imzalanmamış qaldı. Bu hadisə “aşağıdan təşkilatlanma” tərəfdarlarının geri çəkilməsi üçün son dəlil oldu. Elə oradaca dərhal, gözləməyərək AXC-nin təsis konfransını keçirmək barədə qərar qəbul edildi və sürətlə həyata keçirildi.

Gürcüstana səfər iyulun 2-də başlamış, 2-3 gün çəkmişdi. Qayıdandan sonra Təşəbbüs Mərkəzinin ilk iclasında-iyulun 6-da konfransa hazırlığa start verildi.

Konfrans 16 iyul 1989-cu ildə saat 10-da başladı və fasiləsiz 8 saat davam etdi. Konfransda 30 rayon şöbəsini təmsil edən 196 səsvermə və 240 məşvərətçi səslə nümayəndə qeydə alınmışdı. Konfransın iclaslarını aparmaq üçün Yusif Səmədoğlu sədr, Lətifə Məmmədova və Ruhəngiz Hüseynova katib seçildilər. Gündəliyə TM tərəfindən hazırlanmış 6 məsələdən ibarət gündəlik təklif edildi və təsdiq olundu: 1. AXC Təşəbbüs Mərkəzinin hesabatı. 2. Siyasi vəziyyət haqqında. 3. AXC TM-in mətbuat vasitələri ilə əlaqələri. 4. AXC Nizamnaməsinin təsdiqi. 5. AXC məramnaməsinin təsdiqi. 6. Təşkilat məsələləri. Əsas məruzələr üçün 20, çıxışlar üçün 5 dəqiqə müəyyən edildi.

TM-in hesabatı haqqında Tofiq Qasımov məruzə etdi. Konfransda siyasi vəziyyət haqqında məruzə ilə Əbülfəz Əliyev (Elçibəy) çıxış etdi. Əbülfəz bəy o dövrdə SSRİ-də gedən proseslərin yeni və orijinal konsepsiyası ilə çıxış etdi. O, proseslərin mahiyyətinin SSRİ-nin parçalanması olduğunu, bu prosesin labüd, təbii və mütərəqqi olduğunu, lakin kənar faktorların təsiri ilə mürəkkəbləşdiyini göstərdi. Məruzədə belə kənar faktorlar olaraq beynəlxalq güclər, silah mafiyası və regionda erməni amili göstərilir, Qarabağda gedən proseslər də bu prosesə bağlanır".

**P.Hüseyn daha sonra yazır ki, konfransda İsa Qəmbər İdarə Heyətinə 16 nəfərdən ibarət namizədlər verib:** “AXC orqanlarına namizədlər ayrı-ayrı qeyri-rəsmi toplantılarda və ya görüşlərdə müzakirə edilsə də, Təşəbbüs Mərkəzində rəsmən müzakirə edilib təsdiqlənməmişdi. İsa bəy Cəbhə üzvləri və cəbhədaxili bütün qruplar arasında böyük nüfuza malik idi. Əbülfəz Elçibəy AXC-nin yaranmasında ən böyük xidməti olan şəxsin İsa Qəmbər olduğunu sonralar dəfələrlə qeyd etmişdi. Təsis konfransının hazırlanması və keçirilməsi işini koordinasiya edən (faktiki olaraq təşkilati məsələlərə rəhbərlik edən ) İsa Qəmbər AXC orqanlarına namizədlər barədə təklifləri Təşəbbüs Mərkəzi və ya Koordinasiya Şurası adından yox, şəxsən öz adından verirdi.

İsa Qəmbərin təklifi ilə 15 nəfərdən ibarət İdarə Heyəti, 5 nəfərdən ibarət tərkibdə Nəzarət Təftiş Komissiyası, 3 nəfərdən ibarət maliyyə qrupu seçildi. Həmçinin İsa Qəmbərin təklif etdiyi namizədlərdən baş redaktor Nəcəf Nəcəfov olmaqla, Ağamalı Sadiq, Səfər Alışarlı, Xaliq Hacıyev, Əhməd Cavadov, Tariyel Allahverdiyevdən ibarət AXC mətbu orqanlarının redaksiya heyəti seçildi.

Gündəliyə uyğun olaraq AXC-yə sədr seçkiləri oldu.

Zərdüşt Əlizadə Yusif Səmədoğlunun namizədliyini verdi. Rəhim Qazıyev Əbülfəz Elçibəyin namizədliyini təklif etdi. Səfər Alışarlı İsa Qəmbərin namizədliyini təklif etdi. İsa Qəmbər öz namizədliyini geri götürdü. Qızğın mübahisələr oldu və buna görə də Yusif Səmədoğlu öz namizədliyini geri götürdü. Açıq səsvermədə Əbülfəz Elçibəyin namizədliyi qəbul edildi və səsvermə ilə o, sədr seçildi".

**Bəs 30 il öncə yaradılan AXC məqsədlərinə nail ola bildimi və Azərbaycana nə qazandırdı?**

**Pənah Hüseyn “Yeni Müsavat”ın bu sualına belə cavab verdi:** “AXC özünün proqramında qarşısına qoyduğu vəzifələrin mühüm bir hissəsini yerinə yetirdi. Digər mühüm hissə də hələ özünün reallaşdırılmasını gözləyir. O dövrdə Xalq Cəbhəsinin proqramı kommunist-totalitar quruluşunun dağıdılması və demokratik dəyərlərin təsbit olunduğu bir cəmiyyət qurulması idi. Bununla yanaşı, Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunması vəzifəsi qarşıya qoyulmuşdu. Qarabağda erməni separatizmi və Ermənistanın işğalçı müharibəsinə qarşı Azərbaycan xalqının milli müqavimətini təşkil eləmək də AXC-nin qarşısına qoyduğu məqsəd idi. Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu. Bunda AXC həlledici rol oynadı. Azərbaycanda demokratik dəyərlərin qanunvericilikdə, konstitusiyada bərpa olunması, çoxpartiyalı sistemin yaradılması, Azərbaycanın beynəlxalq demokratik sistemə inteqrasiyası istiqamətində müəyyən addımlar atıldı. Lakin ölkədə müasir inkişaf etmiş siyasi mədəniyyətlər səviyyəsində siyasi sistem yaratmaq mümkün olmayıb. Azərbaycan Xalq Cəbhəsinin siyasi varisləri kimi çıxış edən qüvvələr bu vəzifənin yerinə yetirilməsi uğrunda mübarizə aparır”.

**❑ Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**




# Cahangir Hacıyevin dövlətə vurduğu ziyan yenidən hesablanacaq

## "Beynəlxalq Bank işi"nə görə mühakimə olunan sabiq deputat vəkilindən imtina etdi

**Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyev 21 nəfərlə birlikdə növbəti dəfə hakim önünə çıxarılıb.**

Musavat.com xəbər verir ki, Cahangir Hacıyev və onunla birlikdə ittiham edilən şəxslərin cinayət işi üzrə məhkəmə iclası Bakı Ağır Cinayətlər Məhkəməsində baş tutub.

Hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə sabiq deputat Dünyamin Xəlilov vəkili Əsli Məmmədovanın xidmətindən imtina edib. Ona dövlət hesabına vəkil təyin olunmasını xahiş edib.

Vəkillər məhkəmədə araşdırılmasını istədikləri məsələlərlə bağlı vəsatətlər qaldırıblar. Cahangir Hacıyevin vəkilləri bankın Müşahidə Şurasının üzvü olmuş Vəli Kərimovun dindirilməsini istəyir.

Çünki cinayət işinin materiallarında iddia olunur ki, Beynəlxalq Bankda 10, 20 milyon və daha yuxarı kreditlər Cahangir Hacıyevin göstərişilə, bankın Müşahidə Şurasının xəbəri olmadan verilib.

Məlumata görə, Müşahidə Şurasının da kredit limiti ilə bağlı qərarı vardı - 2 milyondan yuxarı kreditlər üçün mütləq şuranın razılığı alınmalıydı. Vəkillər bu məsələyə aydınlıq gətirilməsini istəyirdilər.

İyulun 15-də hakimlər Vəli Kərimovun dindirilməsi haqda vəsatətin təmin olunmadığını deyiblər.

Daha sonra vəkillər məhkəmədən Qazaxıstanın Ədliyyə Nazirliyinə sorğu göndərilməsini də istəmişdilər. Bildirilirdi ki, orada fəaliyyət göstərən "Minay" şirkətinə ayrılan kredit ödənilməyib.

Neft yatağına da sahib olan bu şirkət öhdəliyin yerinə yetirilməməsinə görə Beynəlxalq Banka keçib. Amma 2015-ci ildə Cahangir Hacıyevin Beynəlxalq Bankdan uzaqlaşdırılması və ardınca da həbsindən sonra şirkətin rəhbəri, hüquqi ünvanı bir neçə dəfə dəyişib. Vəkillər Qazaxıstandan o şirkət haqda məlumatlar alınmasını istəyirdi.

Ancaq məhkəmə bununla bağlı vəsatəti də təmin etməyib.

Bu işdə zərərçəkən qismində "Aqrarkredit" QSC tanınıb. Bu qurum 2015-ci ilin iyununda Beynəlxalq Bankın problemlərinin həlli məqsədilə prezidentin fərmanı ilə yaradılıb. Qaytarılmayan kreditlərə görə müsadirə olunan əmlakların (müəssisələr) idarə olunması da bu quruma həvalə olunub.

"Aqrarkredit" "Beynəlxalq Bank işi" üzrə istintaq zamanı DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində C.Hacıyev və digərlərinə qarşı 4 milyard 138 milyon manat mülki iddia qaldırıb. Məhkəmədə C.Hacıyevin vəkilləri bu məbləğə etiraz ediblər. Onlar deyiblər ki, "Aqrarkredit" qaytarılmayan kreditlərə görə müsadirə olunmuş əmlakları nəzərə almayıb.

"Aqrarkredit" mülki iddianın məbləğini bir daha dəqiqləşdirməkdən ötrü məhkəmədən vaxt istəyib.

Məhkəmə iyulun 22-nə qədər təxirə salınıb.

Rəsmi məlumata görə, aparılmış istintaqla 2001-2015-ci illərdə "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sədri vəzifəsində işləmiş C.Hacıyevin göstərişləri əsasında ayrı-ayrı ölkələrdə yaradılmış hüquqi şəxslərlə real dəyəri olmayan sadə veksellərin alqı-satqısına dair 3,4 milyard ABŞ dolları və 987 milyon avro məbləğində (müvafiq dövrün məzənnəsi ilə 3,8 milyard manat) müqavilələr bağlanılaraq qanunsuz veksel əməliyyatları aparılmasına dair əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa, istintaqla C.Hacıyevin göstərişləri əsasında həmin dövrdə qeyriləri vasitəsilə çoxsaylı kredit müqavilələri bağlanaraq manat və xarici valyutalarla rəsmiləşdirməklə 900 milyon manat həcmində pul vəsaitinin bankdan digər hesablara köçürülərək mənimsənilməsinə dair əsaslı şübhələr müəyyən edilib.

Aparılmış istintaqla C.Hacıyevin tanışı Dünyamin Xəlilov, digər 20 nəfər və qeyriləri ilə birlikdə qanunsuz maliyyə əməliyyatları aparılan və real dəyəri olmayan veksellərin alınması, eləcə də təminatı olmayan kreditlərin verilməsi yolu ilə ümumilikdə 4,1 milyard manat məbləğində pul vəsaitinin mənimsəmə və digər cinayətlər yolu ilə 2,5 milyard manat hissəsini ələ keçirməklə cinayət yolu ilə əldə edilmiş həmin vəsaitin 2 milyard manatını leqallaşdırmasında, digər 2,2 milyard manat məbləğində pul vəsaitinin isə müxtəlif əməliyyatlara yönəltməklə "Azərbaycan Beynəlxalq Bankı" ASC-yə ziyan vurmasına əsaslı şübhələr müəyyən edilib.

❑ **İlkin MURADOV,**
**Musavat.com**

# Şəki Xan Sarayındakı budağın qırılma səbəbi bəlli olub-rəsmi açıqlamalar

## Baş Prokurorluq hadisə ilə bağlı yeni məlumat yaydı; ekspertlər təxribat ehtimalını yaxın qoymur, qəzanın nəticələri aradan qaldırılır

**İyulun 15-də Baş Prokurorluq Şəki Xan Sarayının ərazisindəki ağacın budaqlarının qırılması nəticəsində çoxlu sayda insanın xəsarət alması ilə bağlı yeni məlumat yayıb. Baş Prokurorluğun mətbuat xidmətindən "Yeni Müsavat"a daxil olan məlumatda bildirilir ki, iyulun 14-də saat 12 radələrində Şəki Xan Sarayının ərazisində ağacın budaqlarının qəflətən qırılaraq insanların üzərinə düşməsi nəticəsində 19 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq dərhal Şəki Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Onlardan 13 nəfərə ilkin tibbi yardım göstərilərək evə buraxılıb. Digər 2 nəfərin Şəki Rayon Mərkəzi Xəstəxanasında, 4 nəfərin isə Bakıdakı Mərkəzi Klinik Xəstəxanada yüksəkixtisaslı mütəxəssislərin cəlb olunması ilə intensiv müalicələri davam etdirilir.**

Baş vermiş hadisə ilə əlaqədar rayon prokurorluğunun əməkdaşları, eləcə də aidiyyəti nazirliklərin mütəxəssisləri dərhal həmin ünvana gedərək, ilk növbədə, xəsarət alan şəxsləri təcili-tibbi yardım maşınları ilə xəstəxanaya çatdırıblar. Hadisə yerinə baxış keçirilib, qırılmış budaqlardan nümunələr, habelə digər əhəmiyyət kəsb edən maddi sübutlar və izlər götürülüb, mütəxəssislərin ilkin rəyləri alınıb.

Aparılmış ilkin araşdırmalarla müəyyən edilib ki, hündürlüyü 34 metr olan Xan çinarın 21 metr hündürlükdə yerləşən 0,5 metr diametrli budağı qəflətən qoparaq aşağıda - 17 metr hündürlükdə olan nisbətən kiçik diametrli budağı da qırıb, nəticədə hər iki budaq insanların üzərinə düşüb.

Mütəxəssislərin ilkin rəyinə əsasən, budaqların qırılmasına əlverişsiz hava şəraiti səbəb olub. Belə ki, iyulun 12-də başlayan və sürəti saniyədə 8-12 metr olan küləklə müşayiət olunan, xüsusilə iyulun 14-də səhər saatlarından başlayaraq 3 saat ərzində aylıq normanın 54 faizi miqdarında (32 mm) aramsız yağış yağıb. İlkin müayinələrə əsasən, müəyyən edilib ki, qırılmış əsas budaq sağlam olub, qurumağa və hansısa fiziki təsirlərə məruz qalmayıb. Həmin budaqlarda virus və ya bakterioloji proseslərin gedib-getməməsinin müəyyən edilməsi üçün budaqlardan nümunələr götürülərək bioloji tədqiqatın keçirilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisləri cəlb olunmaqla məhkəmə-bioloji və məhkəmə-trasoloji ekspertizaları təyin edilib. Ekspertizaların keçirilməsi Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinə həvalə olunub.



### Səbəb yağan mütəmadi yağışlardır

**Şəki Xan Sarayının həyətində 500-ə yaxın yaşı olan çinar ağacının iki budağının qırılaraq yerə düşməsinin ilkin səbəbi məlum olub. Bu barədə "Report"un Şimal-qərb bürosuna Şəki Yuxarı Baş Dövlət Tarix Memarlıq Qoruğunun direktoru Təranə Abdullayeva məlumat verib. T.Abdullayeva bildirib ki, ağacın iki budağının qırılıb düşməsinə səbəb son zamanlar mütəmadi yağan leysan xarakterli yağışlar və güclü külək olub:** "Son günlər yağan aramsız yağışlar və bu gün səhər saatlarından başlayan güclü külək nəticəsində Xan Çinarı ağacının iki böyük budağı qırılaraq yerə düşüb. Hadisə zamanı bir neçə nəfər xəsarət alaraq xəstəxanaya çatdırılıb".

**Qoruq direktorunun sözlərinə görə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının və Respublika Baş Prokurorluğunun əməkdaşları ərazidə araşdırma aparırlar:** "Ağacın 500-ə yaxın yaşı var. Ona görə də iki böyük budağın qırılıb düşməsinin səbəbi araşdırılır. Ağacdan və ərazidən nümunələr götürülüb və laboratoriya şəraitində analizlər aparılır. Təbii ki, əsas səbəblər araşdırmanın yekun rəyindən sonra bilinəcək. Bəlkə ağaca qurd düşüb, bəlkə yaşının çoxluğundan hər hansı çürümə baş verib. Onu biz deyə bilmərik".

T.Abdullayeva əlavə edib ki, ağacın budağının qırılıb yerə düşməsi nəticəsində Şəki Xan Sarayına ciddi ziyan dəyməsə də, çardaq hissəsində bir neçə yer zədələnib.

### İlham İsmayıl: "Təxribat ola bilməz"

"Yeni Müsavat" bu hadisənin təxribat olması, xüsusən də erməni təxribatı olması ilə bağlı ehtimal üzərində də dayanıb. Mümkündürmü? Şəki Xan Sarayının UNESKO-nun siyahısına salınmasından xüsusi təlaş keçirən, buna etiraz edən ermənilərin bu işdə barmağı ola bilərmi? **Təhlükəsizlik üzrə ekspert İlham İsmayıl** hesab edir ki, bununla bağlı bir anlıq elə düşünmək olar. Müsahibimiz xatırlatdı ki, ermənilər də Şəki Xan Sarayının UNESKO-nun siyahısına daxil edilməsinə düşməncəsinə yanaşdılar. Amma bu məsələdə təxribat ehtimalı olduqca zəifdir: "Bir gün əvvəl yağış, külək olub. Neçə yaşı olan çinar ağaclarıdır. Nə qədər möhkəm olsalar da, əzəmətli olsalar da, yıxılırlar. Bu işin təxribat olmadığı ortadadır. Təxribat etməyi düşünən adam Şəki Xan Sarayına qədər gəlmişkən, bu təxribatı elə içəridə də edə bilərdi. Tipik təbiət hadisəsinin nəticəsidir. Amma bu hadisədən dərs götürülməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Mədəniyyət Nazirliyi bu sayaq məsələlərdə daha həssas davranmalıdır. Şəki Xan Sarayı elə yerdədir ki, ona ayrıca nəzarət edilməlidir".

### Dünyanın turistik məkanlarında baş verən qəzalar

"Yeni Müsavat" isə xatırladır ki, dünyanın turizm mərkəzlərində, turistlərin axışdığı zonalarda qəzalar zaman-zaman yaşanır. Xüsusən də turistlərə dəyən maddi-fiziki ziyan hər zaman müzakirə mövzusu olur. Sadəcə, bir neçə misal. Bir həftə bundan öncə İndoneziyanın şərqində 7,1 bal gücündə zəlzələ baş verib. Regionda sunami təhlükəsi elan edilib. Təbiət hadisəsi ilə bağlı ətraflı məlumat verilməyib.

İyulun 15-də Nepalın şərqi və mərkəzi rayonlarında üç gün davam edən leysan yağışlarından sonra baş vermiş daşqın və torpaq sürüşmələri nəticəsində ölənlərin sayı 67 nəfərə çatıb. Nepal polisinin məlumatında 43 nəfərin yaralandığı, 30 adamın isə itkin düşdüyü bildirilir. Polis idarəsinin sözçüsü Rameş Tapa deyib ki, Dhanusa əyalətinin Janak Nandini kəndi Kamal çayının daşması nəticəsində ən çox zərər görən yaşayış məntəqəsi olub. Hakimiyyət orqanları Kulexani Su Elektrik Stansiyasının da bəndini açmağa, buradan ətraf rayonların subasmasına qarşı tədbirlər görməyə çalışırlar. Bəndin yaxınlığındakı yaşayış məntəqələrinin sakinləri isə təxliyə edilib.

Nepalın Təbii Fəlakətlərin İdarə Edilməsi Agentliyi bildirib ki, fəlakət zonasında insanların xilas edilməsi üçün helikopterlərdən də istifadə olunur. Məlumatda diqqətə çatdırılır ki, Nepalda hər il daşqınlar və torpaq sürüşmələri nəticəsində yüzlərlə insan həyatını itirir.

Bir neçə gün öncə Nyu-Yorkda təxminən 70 min insanın işıqsız qalmasına səbəb olan qəza baş verib. Problem artıq aradan qaldırılıb və elektrik enerjisinin verilməsi tam bərpa edilib. Bunu jurnalitlərə açıqlamasında ABŞ-ın "Con Edison" enerji şirkətinin rəhbəri Con Jakevoy deyib. Onun sözlərinə görə, elektrik enerjisinin verilməsində yaranan fasilə elektrik yarımstansiyasında baş vermiş qəzaya görə olub.

Qeyd edək ki, yarımstansiyalardan birində baş vermiş qəza nəticəsində Nyu Yorkda 70 min insan işıqsız qalıb, Manhetten və Yuxarı İst-Sayd bölgəsinin elit rayonlarında işıqforlar, liftlər, işıq dirəkləri və s. işləməyib. Şəhərin mərkəzində transformatorda partlayış olub, nəticədə minlərlə insan işıqsız qalıb.

Bu ilin iyun ayının 6-da İtaliyanın məşhur turizm şəhəri sayılan Venesiyada nəhəng kruvaziyer gəmisi içində turistlərin olduğu balaca bir gəmi ilə toqquşub. Toqquşma nəticəsində azı 5 nəfər xəsarət alıb. Qəzaya səbəb kruvaziyer gəmisinin motorunda yaranan nasazlıq olub.

Ötən ay Antalyaya istirahət üçün gələn turist avtobusu böyük bir qəzaya səbəb olub. Qəza nəticəsində 1 nəfər turist ölüb, bir neçə nəfərsə yaralanıb. Bütün bunlar, sadəcə, son bir neçə ayın qəza statistikalarındandır. Amma fakt budur ki, istər Eyfel qülləsində, istər Londonun turistik məkanlarında, istərsə uzaq Hindistanda turistlər belə qəzalarla tez-tez qarşılaşırlar.

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 148 (7318) 16 iyul 2019

**Deputat, BAXCP sədri Qüdrət Həsənquliyevin şahmat həvəskarı olduğunu lap çoxdan eşitmişdim. Onu da bilirdim ki, imkan tapan kimi həmkarı Fazil Mustafa ilə "şahmat dueli"nə çıxırlar, aralarında çox gərgin mübarizə gedir. Milli Məclis tətilə gedən ərəfədə eşitdiklərimi Qüdrət bəyə deyərək, elə şahmat taxtası arxasında aktual məsələlərlə bağlı söhbət etmək niyyətimi çatdırdım. Sağ olsun, etiraz etmədi, ofisə dəvət etdi. Şahmat taxtası arxasında reallaşan, yaz və növbədənkənar sessiyanı, parlament seçkilərini və digər məsələləri əhatə edən söhbətimizi təqdim edirik:**

# "YAP istənilən vaxt növbədənkənar seçki çağıra bilər"

**Qüdrət Həsənquliyev:** "Məhkəmə və qanunverici hakimiyyət icra hakimiyyəti ilə həm səlahiyyətləri bölüşməlidir, həm də məsuliyyəti"





**BAXCP sədri "Yeni Müsavat"ın əməkdaşı ilə şahmat oynadı və əsas rəqibi Fazil Mustafanın futbol sevgisi ilə bağlı ilginc fikirlər söylədi**

***- Qüdrət bəy, necə şahmatçısınız? Özünüzü güclülərdən hesab edirsiniz?***

- Asudə vaxtlarımızda adətən Fazil bəylə şahmat oynayırıq, çay içirik. Fazil bəy yaxşı şahmatçıdır. Düzdür, hərçənd o, zarafatla deyir ki, Qüdrət bəy yaxşı oynayır, mən əla oynayıram. (Gülür) Amma son vaxtlar nəsə bir az zəifləyib. Hər halda, şahmat çox maraqlı oyundur. Gənclərə də tövsiyə edirəm ki, bu oyunu öyrənsinlər və boş vaxtlarında şahmat oynasınlar.

***- Həmkarlarınızdan daha kimlər şahmat həvəskarıdır?***

- Belələri var. Keçmiş həmkarımız Rövşən müəllim (Rzayev-E.P.) yaxşı şahmat oynayır, "Qaçqınkom"un indiki sədri. Bir vaxtlar Milli Məclis Aparatında çalışan Lətif Hüseynov da yaxşı şahmat oynayırdı. Fəzail Ağamalı da, Zahid Oruc da şahmat oynaya bilir. Amma sözün doğrusu, mən vaxtım olanda Fazil bəylə oynayıram.

***- Bir ara parlamentin futbol komandası çox populyar idi, siz də oynayırdınız. Amma futboldan şahmata keçid elədiniz. Səbəb nə oldu?***

- Bəli, bir müddət oynadıq. O zaman həmin komandada mən, Siyavuş Novruzov, Adil Əliyev, Fazil bəyin özü var idi. Amma artıq yaş öz işini görür. Həm də qayğılar artır, vaxt ayırmağa imkan da olmur. Ona görə də son vaxtlar mən futbol oynamıram. Amma Fazil bəy davam edir.

***- Hətta çimərlik futbolunu oynayır, bu, daha çətindir...***

- Hə, davam edir. Həmişə deyirəm ki, elə eləmə, Allah uzaq eləsin, bir gün zəng gəlsin ki, Fazil bəy stadionda yıxılıb qalıb və sənin dalınca gələk stadiona. (Gülür) Deyirəm artıq dayanmağın vaxtıdır. Təsəvvür edirəm ki, 55 yaş nədir. Vaxtilə məşhur pedaqoq Uşinski deyirdi ki, böyük iradə o demək deyil ki, nəyisə arzulayıb ona nail olasan, böyük iradə ən böyük istəyin qarşısını almaqdır. Yəni sən futbol oynamağı çox istəyirsən, amma ağıl deyir ki, yaş öz işini görür və sən dayanmalısan. Yəni sən istəyinin qarşısını ala bilməsən, ondan əziyyət çəkə bilərsən. Amma Fazil bəy özünü saxlaya bilmir, davam edir, öz sağlamlığına və fiziki imkanlarına güvənir, təki olsun. Amma ehtiyatlı olmaq lazımdır. (Gülür)

***- Qüdrət bəy, elə oyunumuz davam edərkən Milli Məclisin yaz və növbədənkənar sessiyasının yekunlarından danışaq, icazənizlə. Spiker sessiyaların yekunundan çox razı qaldı, parlament müxalifətinin nümayəndəsi nə fikirdədir?***

- Biz hesab edirik ki, parlament ölkədə dövlət quruculuğu prosesinə, ölkəmizin qarşısında duran problemlərin həllinə daha çox töhfə verə bilər. Çox təəssüf ki, bizim parlament daha çox qanunvericilik fəaliyyəti ilə məşğul olur. Amma parlament təkcə qanunvericilik fəaliyyəti ilə məşğul olmamalıdır. Ölkəmizi narahat edən bu və ya digər məsələlər mütəmadi şəkildə parlamentdə müzakirə olunmalıdır. Bəzən biz hansısa yüksək çinli məmurlarla, bu və ya digər nazirliyin tərkibindəki qanunsuzluqlarla bağlı, yaxud ümumiyyətlə, sosial problemlərlə əlaqədar çox müxtəlif qanun pozuntuları barədə eşidirik. Amma bu məsələlər parlamentdə müzakirəyə çıxarılmır. Sanki parlamentin buna aidiyyəti yoxdur və bu, icra hakimiyyətinin məşğul olmalı olduğu məsələdir. Məsələn, iki devalvasiya oldu, parlamentdə bir dəfə müzakirə oldumu ki, bunlar niyə baş verdi və nə etmək lazımdır ki, növbəti dəfə bu kimi hallar baş verməsin? Yaxud vaxtilə MTN-də baş verən hadisələr, sahibkarların təqib olunması, onlardan qanunsuz olaraq vəsait tələb olunması və s. Və ya Beynəlxalq Bankla bağlı məsələ. 10 milyard dollardan artıq vəsait oğurlandı, bizim pulla 17 milyard manat edir. Bu qədər vəsait vəsaitin oğurlanmasını parlament müzakirəyə çıxartdımı? Müvafiq vəzifəli şəxslər dəvət olundumu ki, parlamentə gəlin, hesabat verin, görək bunlar niyə baş verib? Ona görə də çox təəssüf ki, parlament yalnız qanunvericilik fəaliyyəti ilə məşğul olur. Parlamentin vəzifəsi ancaq bundan ibarət deyil. O baxımdan, əlbəttə, mən ümumən parlamentin fəaliyyətindən narazıyam.

***- Bəs təqdir etdiyiniz nələrsə varmı?***

- Parlamentin beynəlxalq təşkilatlardakı fəaliyyəti var. Doğrudan da bizim millət vəkilləri çox fədakarcasına çalışırlar, istəyirlər ölkəmizin imicinin yaxşılaşdırılması, ölkəmizin maraqlarının qorunması üçün həmin təşkilatlarda nələrsə eləsinlər, yəni bunları qiymətləndirmək lazımdır. Sonra deputatlar tərəfindən büdcə müzakirəsi, hökumətin hesabatı zamanı yerlərdəki problemlər qabardılır, deyilir, bunlar da müsbət hallardır. Amma yuxarıda qeyd etdiyim məsələlər və parlament idarəetməsində müxalifətin iştirak etməməsi, müxalifət fraksiyasının olmaması və bunun nəticəsi olaraq alternativ məruzələrlə müxalifətin çıxış etmək imkanının olmaması – bütün bunlar, əlbəttə, parlamentin üzərinə kölgə salır. Həm də parlament aktiv olacağı təqdirdə icra hakimiyyətinə yönələcək bir çox tənqidləri öz üzərinə götürəcək, hakimiyyətin bir qanadı kimi. Ölkədəki bütün proseslərə görə təkcə icra hakimiyyəti məsuliyyət daşımır ki. Hakimiyyətdən söhbət gedirsə, hakimiyyətin üç qanadı var, icra hakimiyyəti onlardan biridir. Məhkəmə hakimiyyəti də məsuliyyət daşıyır, qanunverici orqan da. Məhkəmə və qanunverici hakimiyyət icra hakimiyyəti ilə ciddi şəkildə həm səlahiyyətləri bölüşməlidir, həm də məsuliyyətin üçdə ikisini öz üzərinə götürməlidir. Bizim cəmiyyətdə, açıq deyək, hamı hər şeyi yalnız icra hakimiyyətində görür, bu da doğru deyil.

***- 2020-ci il parlament seçkiləri ilidir. Təbii ki, qalan müddətdə əgər növbədənkənar seçki elan olunmazsa...***

- YAP istənilən vaxt növbədənkənar seçki çağıra bilər, konstitusiya buna imkan verir. Kifayətdir ki, YAP üzvləri MSK-ya istefa ərizəsi verirlər və millət vəkillərinin sayı 83-dən az olursa, o halda Milli Məclis səlahiyyətli sayılmır və konstitusiyaya görə, prezident dərhal növbədənkənar seçki təyin etməlidir. Yəni bu zaman heç Milli Məclisin toplanmasına da ehtiyac yoxdur. Sadəcə, YAP rəhbərliyinin ölkədə növbədənkənar seçkilərin keçirilməsinin siyasi baxımdan məqsədəuyğun olması barədə qərarı kifayətdir.

***- Bu addımın atılması real görünür?***

- Bunu prezidentdən başqa heç kim birmənalı şəkildə deyə bilməz. Bu, daha çox prezidentin iradəsindən asılı olan məsələdir.

***- Sizin vaxtilə proporsional seçki sistemini bərpa etməklə bağlı təklifləriniz olmuşdu. Siyasi islahatların tərkib hissəsi olaraq bu təklifə baxıla bilərmi?***

- Proporsional seçki sistemi referendumla yeni konstitusiya qəbul etməklə, yaxud mövcud konstitusiyanı dəyişməklə bərpa oluna bilər. Mən çox istərdim ki, belə olsun. Proporsional seçki sisteminin bərpası ölkədə çoxpartiyalı sistemin inkişafına böyük təkan vermiş olacaq. Həm də parlamentdə fraksiyaların yaranmasını şərtləndirəcək. Məsələn, biz birbaşa konstitusiyada yaza bilərik ki, parlamentdə ən azı 3 partiya təmsil olunmalıdır və topladığı səsdən asılı olmayaraq, müxalifət partiyalarının təmsilçiliyi 30 faizdən aşağı olmamalıdır. Bizim ölkəmizin bir çox problemləri müxalifətin zəifliyindən qaynaqlanır. Beynəlxalq Bankda, MTN-də baş vermiş cinayətlər həm də ölkədə güclü müxalifətin olmamasının göstəricisidir. Ona görə də ölkədə hökumətin fəaliyyətinə nəzarət etmək gücündə olan müxalifət olmalıdır. Ölkədə bu missiyanı ləyaqətlə yerinə yetirmək gücündə olan konstruktiv, sağlam müxalif qüvvələr var. Sadəcə olaraq, islahatlar nəticəsində onların önü açılmalıdır ki, parlamentdə təmsil oluna bilsinlər və həm də parlamentin imici dəyişsin. Biz Cənubi Qafqazda yeganə ölkəyik ki, parlamentdə müxalifət fraksiyası yoxdur. Hətta müxalifət komitə sədrlərinin müavini səviyyəsində belə, hər hansı vəzifədə təmsil olunmur. Bizdə nəinki parlamentdə özünü müxalifət elan etmiş partiyalar, hətta iqtidarı birmənalı şəkildə dəstəkləyən və özünün iqtidaryönümlü partiya olduğunu deyən partiya sədrlərini də komitə sədrinin müavini qoymurlar. Ya bitərəf olmalıdır, ya da YAP üzvü, başqa partiya olmaz. Halbuki vitse-spikerlərdən də biri müxalifətdən olmalıdır, komitə sədrləri də müxalifət partiyaları ilə bölünməlidir. Ən azı bəzi şeyləri Rusiyadan öyrənməliyik. Milli Məclisin Daxili Nizamnaməsində qeyd olunub ki, Milli Məclisin idarə olunması çoxpartiyalılıq prinsipinə əsaslanır. Həmin qanunu prezident də imzalayıb. Amma çoxpartiyalılıq prinsipi harada özünü göstərir? Heç yerdə. Düşünürəm ki, islahatlar bu sahələri əhatə edə bilər.

***- Qüdrət bəy, sizin Pənah Hüseyn və digər bir neçə partiyanın sədri ilə görüşünüz oldu. Bu görüşlərdə həm də müxalifətin seçkidə birgə iştirak məsələsi müzakirə edildimi?***

- Yox, orada seçkidən, seçkidə birgə iştirakdan söhbət getmirdi. Söhbət islahatların dərinləşdirilməsinə töhfə verməkdən gedirdi. Yeni partiyalar toplaşıb hökuməti bir daha çağırırdı ki, islahatlar genişləndirilsin və islahatlara gedilən zaman hansı prinsipial məsələlər həllini tapmalıdır. Müzakirə üçün ilkin sənəd də təklif olunmuşdu. Sonradan işçi qrup yaradılmalı, o sənəd üzərində işlənilməliydi, amma tədbirin təşkilatçıları olan üç partiya sistemdən kənar destruktiv və radikal qüvvələrin hücumu bu işi dayandırdı.

***- Yəni artıq BAXCP ilə bu təşkilatların əməkdaşlığına nöqtə qoyuldu?***

- Məncə, nöqtə qoyuldu. Şantajdan qorxdular. Bu cür siyasi iradə sahibi olanlarla əməkdaşlıqdan da müsbət nəsə gözləməyə dəyməz. Azərbaycanın siyasi sistemindəki nöqsanları, çatışmazlıqları, qüsurları biz hamımız görürük və bu vəziyyəti dəyişmək üçün iqtidarla və gənclərlə çox işləməliyik. Yalnız iqtidarın xoş niyyəti hazırkı məqamda müsbət dəyişikliklərə yol aça bilər.

Söhbətimizin bu məqamında rəqibim "Yox, yaxşı oynayırsınız" deyərək, xoş sözlərini əsirgəmir. Amma məncə, suallarımla Qüdrət bəyin fikrini yayındıra bildiyim üçün, ya da ki, qonağa ehtiram əlaməti olaraq qələbəni əldən verdi. Hərçənd bu qeydimizlə də razılaşmadı: "Yox, Fazil bəydən əla oynayırsınız, qələbə münasibətilə təbrik edirəm".

❑ **Elşad PAŞASOY,**
**Foto: "Yeni Müsavat"**



# Tələşa ehtiyac yoxdur

Zamin HACI
zaminhaci@gmail.com

*"Su olmasa, qışda əridib qarı yeyərsən,*
*Daşdan yumuşaq zəhr nədir, marı yeyərsən"*
*(Sabir)*

**Bu yaxında kənd təsərrüfatı nazirinin müavini dükan-bazarda bahaçılıqla bağlı demişdi ki, təlaşa ehtiyac yoxdur. Əlbəttə. Mən də hansısa nazirlikdə işləsəm heç zaman təlaş etməzdim. Eyni zamanda nazirlikdə işləməyənlər üçün də təlaş lazımsız şeydir. Ət olmaz, böcək yeyərik. Deyir, beynəlxalq təşkilatlar da camaata həşərat yeməyi məsləhət görür: əqrəb, hörümçək, qarışqa, tarakan... Uzun sözün qısası, hərəkət edən nə varsa yemək olar. Tərtəmiz zülal imiş. Yaxın illərdə planetdə camaat o qədər artacaq ki, bunlara mal-qara əti çatdırmaq mümkün olmayacaqdır. Kim indidən həşərat yeməyi öyrənsə, salamat qalacaqdır. (O vaxtacan Ermənistan boşalacaq, biz Qarabağı alacağıq. Ümid edirəm MTN Eldar da Metro Tağının 3 milyon dollarını qaytarmış olar. Yaşlı, şair adamdır, qoca vaxtında çətinlik görməsin). Ağcaqanadı otaqda şəxsi qanınla bəsləyəndə əsl təbii, GMO-suz, orqanik yemək alınır. Əqrəbin zəhəri isə qaynadanda yox olur - bunu mən telekanalizasiyalarımızın hansındasa mətbəx verilişində gördüm. Orada rayonda yaşayan müəllimlər və həkimlər dolanışıq üçün ilan-qurbağadan ləziz milli xörəklər hazırlamağı məşq və təlim edirdilər. Deyir, qurbağadan yaxşı yayma xəngəl, qarışqadan isə basdırma olurmuş. Milçəyin əla yarpaq dolması çıxır. Hələ çəyirtkə antrikotu... Mmmm... Ləzzətdir. Vaxt gələcək, şadlıq sarayında mətbəxdən quzu əti tapılması milləti narahat edəcəkdir, baxarsınız.**

Bir az dini, halal-haram məsələsi var, onu da şeyximiz fətva ilə həll edər. Dövlət idarəsidir, nə işə yaramalıdır? Ümumiyyətlə, nazir müavini təlaşa ehtiyac olmadığını deyəndə həmçinin bizim dualarımızı nəzərdə tuturdu. Biz belə sınaqlardan çox çıxmışıq. Qiymət qalxanda bizim əllərimiz də havaya qalxır. Qiymət və əllərimiz düz mütənasib əlaqəyə malikdir. Pis mənada, təslimçilik kimi yox, dua etmək üçün. Şükranlıq üçün. Necə deyərlər, pis günümüz belə olsun... Daha pis ola bilərdi - öz potensialımıza, qabiliyyətimizə bələdik. O üzdən, dini kadrlara ehtiyac artır. Mühəndis ixtisaslarını ləğv eləsək də, bu ildən molla peşəsində artım vardır. Deyir, keçən il Azərbaycan İlahiyyat İnstitutuna 60 tələbə qəbul olmuşdur, 2019-cu ildə dövlət qəbul planını artırmağa məcbur olaraq tələbə sayını 72 nəfərə qaldırmışdır. Əlhəmdüllah. Maşallah. Mollalarımız çox olmalıdır ki, xalqın göylə əlaqələri zəifləməsin, bağ-bostan, pomidor-xiyar dərdi çəkməsin. Fani dünyadır, axirət üçün çalışın. Vallah. Məsələn, mənim çoxlu pulum olsa holdinqimin adını "Axirət Holdinq", ya da "Şükürolsun" qoyardım. Sözgəlişi, bu yaxında ölkənin ən böyük monopolist iqtisadiyyatımızda monopoliyaların olmasından şikayətlənmişdi. Həmin vaxt o qədər güldüm, az qaldı qarnım cırılsın, sonra sakitləşdim, dedim, qarnım cırılar, boş olduğu görünər, xaricdən maliyyələşən axmaqlar çəkib internetə qoyarlar, respublikamızın müsbət imicini zədələyərlər. Patriotizm bax belə şeydir, gərək güləndə də elə güləsən, qarnın cırılmasın.

Təlaşsızlıq o qədər bizi arxayın salıb ki, bir arvad uşağını metroda unudub çıxıb getmişdi. Deyir, ağzı telefonda danışmağa qızışıb, növbəti stansiyalarda baxıb uşaq yanında yoxdur. Ancaq bunun özü respublikamızda asayişin, ictimai-siyasi sabitliyin sübutu deyildirmi? Uşağı harada istəsən qoy, başını burax, çıx get. Tam arxayın şəkildə. Axşamüstü hüquq-mühafizə orqanları özləri gətirib beşiyinə buraxacaqdır. Pampersini dəyişdirirlər. Hələ bəzi uçastkovılar milli laylay oxuyur, körpəni yatızdırıb gedirlər. Sərbəstlik, azadlıq, insan hüquqları, sərbəst toplaşma, sərməst goplaşma, sərrast zopalaşma, sərsəm sabunlaşma və sairə azadlıqlar necə inkişaf edibsə, maşinistlər qatarı açıq qapı ilə sürür, camaat metroda siqaret çəkir, manıslar hovuzda öpüşür, avtobus sürücüləri maşın sürə-sürə vatsapda sevgililərinə ürək işarəsi göndərirlər.

Elə mən də yazımın sonunda bütün oxucularıma öpücük işarəsi göndərirəm. Bu il öpücüklərimiz boldur, yaxşı məhsul var.

# Ermənistan əhalisi sürətlə qocalır - demoqraflardan SOS

## İşğalçı ölkədə doğum faizi inqilabdan sonra da azalmağa davam edir - səbəblər; sələflərin ağır mirasının altında qalan Paşinyan, üstəlik, Gürcüstan yolunun bağlanması riski ilə üzləşib - hökumət problemlər girdabından çıxa bilmir...

**İşğalçı Ermənistandan gələn xəbərlər orada təkcə sosial-iqtisadi durumun yox, demoqrafik durumun da acınacaqlı olduğuna dəlalət edir. Ən önəmlisi odur ki, bu göstəricilər "məxməri inqilab"dan bir ildən çox keçsə də, getdikcə daha da pisləşməyə meyllidir, nəinki yaxşılaşmağa. Bu haqda ən əvvəl elə yerli ekspertlər SOS siqnalı verirlər.**

"2019-cu ilin birinci rübündə Ermənistanın 5 vilayətində əhali azalıb". "Yeni Müsavat"ın Novostink.ru erməni qaynağına istinadən verdiyi məlumata görə, bu barədə BMT-nin Əhali Fondunun erməni ofisinin nümayəndəsi Tsovinar Arutyunyan deyib. "O sırada Loridə ölüm səviyyəsi doğumu 121, Şirakda 112, Sünikdə 67, Tavuşda 61, Vayotsdzorda 10 nəfər üstələyib. Mənzərənin daha dolğun təsəvvür edilməsi üçün xatırladım ki, 1990-cə ildə təbii artım 57 900 nəfər idisə, 2018-ci ildə bu rəqəm 11 900 olub", - deyə demoqraf bildirib.




**Onun sözlərinə görə, hökumət problemi bilir və onunla məşğuldur:** "Bundan ötrü baş nazirin yanında ölkədə demoqrafik vəziyyətin yaxşılaşdırılması ilə bağlı komissiya yaradılıb. Artıq Lori, Ararat vilayətlərində situasiyanın öyrənilməsi üçün tədqiqatlara başlanıb - hansı vilayətlərdə ki, keçən il nisbətən ən yüksək təbii artım qeydə alınmışdı. Tədqiqatın nəticələri bir ay sonra məlum olacaq".

**Ancaq erməni mütəxəssisə görə, artıq bu gün söyləmək olar ki, əhalinin təbii artım sürətinə əsasən yüksək ölüm faizi, doğum faizinin aşağı düşməsi, miqrasiya, həmçinin boşanmaların artması təsir edir.** "Mütəxəssislərin proqnozlarına görə, 2025-ci il üçün Ermənistanda artıq bütün ölkə boyu əhalinin azalması gözlənilir. Bu da əhalinin qocalması və miqrasiya ilə bağlıdır. Beləcə, ölkədə yaşı 65-dən yuxarı əhali getdikcə çoxalır. Əgər bu gün o, 12% təşkil edirsə, 2050-ci il üçün 22% olacaq", - deyə məqalədə qeyd olunur.

"Beynəlxalq təcrübə bu problemin həlli üçün vahid reseptin olmadığını deyir. Əsas həll yolu odur ki, əhali öz ümidlərini, özünün və ailəsinin gələcəyini yaşadığı ölkə ilə bağlayır. İkinci faktor - gənclərin təhsil və işlə bərabər eyni vaxtda ailə qura bilməsidir. 2017-ci ildə apardığımız tədqiqatların yekunu bunu deyir. Bir çox gənclər ailədə 3 uşağın olmasını istəyir, lakin reallıqda bir və ya ikisi ilə kifayətlənirlər" - Arutyunyan əlavə edib.

*****

Söz yox ki, Ermənistanda əhalinin azalması və qocalmasında dünyadakı subyektiv amillərdən daha çox yerli, özəl amillər rol oynayır. Bura ilk növbədə həlli uzanan Dağlıq Qarabağ problemi, sərhədlərin bağlı qalması, müharibə təhlükəsi və işsizlik problemindən dolayı gənc əhalinin gələcəyə olan inamının sarsılması, bütün bunların nəticəsi olaraq isə əmək qabiliyyətli ermənilərin ölkədən kütləvi köç etməsi daxildir. Bu, həm də o anlama gəlir ki, Ermənistanda işğalçı orduya çağırışçı problemi getdikcə daha da qəlizləşəcək.

Diqqətçəkicidir ki, Ermənistanda inqilabdan sonra da doğum faizi artmayıb, əksinə, azalıb. Çünki əhalinin azalmasına səbəb olan, yuxarıda sadalanan faktorlar yerində qalır. Problemlərin problemi isə deyildiyi kimi, Qarabağ konfliktidir.

Son vaxtlar əmək qabiliyyətli ermənilərin ölkədən kütləvi köçünə qonşu Gürcüstandakı məlum proseslər də təsir edir. İrəvanda narahatdırlar ki, xaricə yegane çıxış qapısı olan, Ermənistanı Rusiya ilə birləşdirən əsas tranzit ölkə kimi Gürcüstan günün birində əsas qapını da bağlaya bilər. Yeri gəlmişkən, bu yöndə artıq bəzi xəbərdarlıqlar gəlməyə başlayıb.

*****

"Keçən il sentyabrın 1-dən Gürcüstan hökuməti Rusiyadan Ermənistana idxal olunan taxıl məhsullarının ölkə üzərindən daşınmasına qadağa qoymuşdu. Ermənistan hökuməti uzun danışıqlardan sonra bu qərarı ləğv etməyə nail olsa da, Gürcüstan hökuməti yeni qadağa tətbiq etməyə hazırlaşır".

Bu barədə Ermənistanda nəşr olunan, baş nazir Nikol Paşinyana yaxınlığı ilə tanınan "Jamanak" qəzeti yazıb.

**Nəşrin məlumatına görə, Gürcüstan hökuməti bu il oktyabrın 1-dən Rusiyadan Gürcüstan üzərindən Ermənistana idxal olunan məhsulların daşınmasını qadağan edə bilər.** "Bu halda un, çörək və ətin kəskin bahalaşması müşahidə oluna bilər. Donuz və quş əti, habelə heyvan yemlərinin böyük əksəriyyəti də Rusiyadan idxal olunur", - deyə qəzet əlavə edib.

Bunun üzərinə Rusiyanın Ermənistana satdığı təbii qazı daha da bahalaşdıraraq, min kub metr üçün 200 dollara çatdıracağı ilə bağlı elə həmin nəşrin az öncə yazdığını da əlavə etsək, Paşinyan hökumətinin üzləşdiyi sosial iqtisadi problemlərin ağırlığı təsəvvür edilər. Deməli, demoqrafik problem də ağırlaşmaqda, əhali qocalmaqda davam edəcək. Məsələ ondadır ki, ölkədə hakimiyyət dəyişsə də, iqtisadi-sosial göstəricilər dəyişməz qalır və o səbəbə iş qabiliyyətli ermənilər buna klassik şəkildə, yəni öz ayaqları ilə - ölkədən çıxıb getməklə etiraz edəcəklər...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 148 (7318) 16 iyul 2019

# İran-ABŞ gərginliyi qanlı savaşa keçə bilərmi?

## Ekspert: “ABŞ İranı hərtərəfli zəiflətməyə çalışır, lakin Tehranın məğlub olub geri çəkilməsi inandırıcı deyil”

**İranla ABŞ arasında gərginlik səngimək bilmir. Ötən gün İran prezidenti Həsən Ruhani Tehranın Vaşinqton sanksiyaları aradan qaldırsa və keçən il çıxdığı 2015-ci il razılaşmasına qayıtsa, Birləşmiş Ştatlarla danışıqlara hazır olduğunu bildirib.**



ABŞ prezidenti Donald Trampın administrasiyası nüvə və təhlükəsizlik məsələləri ilə bağlı daha əhatəli razılaşmaya dair danışıqlara açıq olduğunu bəyan edib.

Bütün bunlarla yanaşı, ABŞ-ın keçən il beynəlxalq razılaşmadan çıxaraq, İrana qarşı sanksiyaları bərpa etməsi və İranın əsas iqtisadi sektoru olan neft sektorunu hədəf alan yeni ölçülər tətbiq etməsindən sonra Birləşmiş Ştatlar və İran arasında gərginliklər daha da artıb.

İki dövlət arasında gərginliyin qanlı savaşa keçməsi mümkündürmü? Bu, nə qədər realdır?

**“Yeni Müsavat”a danışan ekspert Nəzakət Məmmədova bildirib ki, İran-ABŞ gərginliyi İran ərazisində savaşa keçməyəcək:** “Ən pis halda üçüncü ölkələrin ərazisində ABŞ, onun Yaxın Şərqdəki müttəfiqləri - xüsusilə İsrail və Səudiyyə Ərəbistanı ilə İran arasında hərbi, kəşfiyyat, diplomatik qarşıdurmanın olması mümkündür. Eləcə də İranın Səudiyyə, İsrail ərazisində, habelə ABŞ-ın Yaxın Şərqdəki hərbi, diplomatik obyektlərinə terror-təxribat addımları atması gözlənilir. Eynilə, həmin ölkələrin İran ərazisində, həmçinin Yaxın Şərqdə "Şiə hilalı" adlanan və İranın geosiyasi nüfuz dairəsinə daxil olan ərazilərdə İran və onun müttəfiqlərinə qarşı analoji addım atması gözlənilə bilər. Lakin bunları ABŞ və İranın rəsmi orduları yox, müttəfiq dövlətlərin ordularının, eləcə də muzdlu qoşunların vasitəsilə edəcəyi ehtimalı daha güclüdür. İran Hizbullah, Həşdi-şabi, Mehdi ordusu, SEPAH-ın Qüds briqadası vasitəsilə öz Orta Şərq planlarını hərbi və kəşfiyyat yolu ilə həyata keçirməyə davam edə bilər, necə ki, ABŞ birbaşa öz ordusu vasitəsilə yox, müttəfiqləri və muzdlu ordular vasitəsilə bunu həyata keçirir. İranın nəzarətində husilər, şiə qruplaşmalarından başqa bir çox vasitələr var ki, ən azından onu ABŞ, Səudiyyə və İsrail qarşında güclü edir. Səudiyyə Ərəbistanı 1924, İsrail 1948-ci ildə yaradılıb, 1776-cı ildən müstəqillik qazanıb dünya xəritəsinə daxil olmuş ABŞ-ın isə Orta Şərqdə mövcudluq tarixi çox uzun deyil. Belə bir şəraitdə, İran şübhəsiz ki, ərazisindəki müxtəlif imperiyalar dövründə Orta Şərqi idarə edib, onun burada çoxəsrlik dayaqları, bağları var. Bu, İranı düşmən qüvvələr qarşısında güclü, yenilməz edir. Hər halda, İranı asanlıqla parçalamaq, məğlub etmək olmayacaq, Suriya, İraqdan fərqli olaraq o, milliyyətindən asılı olmayaraq öz ərazisindəki əhalini və nəzarətində olan bölgə ölkələrinin əhalisini vahid şiəlik ideologiyası ətrafında səfərbər etməyi bacarıb. İran diplomatiyasının min illik təcrübəsi var. Bu təcrübə indi də özünü göstərir".

**Ekspert bildirib ki, İran bir dövlət kimi ABŞ tərəfindən vaxtaşırı ona edilən ultimatum xarakterli bəyanatlara səssiz qala bilməz:** “İran ABŞ-ın ultimatumlarına bir qayda olaraq cavab olaraq bildirir ki, bu ultimatumlar müstəqil dövlət olan İrana qarşı başqa bir dövlət tərəfindən təhdiddir və biz beynəlxalq məhkəməyə müraciət edəcəyik. Çünki İran başa düşür ki, əgər onlar ABŞ-ın sərt xarakterli ultimatum bəyanatlarına sərt cavab versə, bu, ABŞ-ın əlində fürsət olacaq ki, İrana qarşı hərbi əməliyyatlar həyata keçirsin və təzyiqləri gücləndirsin. İran bu məsələdə sivil görünməyə çalışır, anlaşmazlıqları hüquq yolu ilə çözməyə çalışır. İran bu yolu seçməkdə həm məsələnin ədalətli həll olunmasını, həm də vaxt udmaq istəyir. Çünki beynəlxalq məhkəmələr illərlə uzanan prosesdir. ABŞ-İran münasibətlərində beynəlxalq məhkəmənin olmağı birinci dəfə deyil. Ümumiyyətlə, İran həmişə özündən güclü rəqiblə rastlaşanda və artıq güc yolu ilə məsələni həll edə bilməyəcəyini gördükdə, bu zaman beynəlxalq məhkəməyə müraciət edir. Məsələn, 1950-ci illərdə İranın təcrübəsində belə bir hal olmuşdu ki, Britaniya ilə neft müqavilələri üzündən böyük gərginlik yaranmışdı və İran beynəlxalq məhkəməyə müraciət etmişdi. ABŞ və müttəfiqləri İranın üstünə getdikcə İran münaqişədən yayınmaq istəyir. İran qazanmağa çalışdığı zamanda ola bilər ki, öz siyasətində müəyyən düzəlişlər edəcək. Qeyd edim ki, ABŞ İranın qarşısına qoyduğu tələblərlə İranın bütün xarici siyasət ideologiyasını alt-üst etmək istəyir”.

**N. Məmmədova hesab edir ki, İran öz xarici siyasət prioritetlərindən əl çəkməyəcək:** “İran çalışacaq ki, tərəfdaş ölkələrlə hərbi, siyasi, diplomatik əlaqələrini daha da genişləndirsin. Bu ölkələrə də əsas olaraq Çin, Rusiya daxildir. Həmçinin Böyük Britaniya da hazırda İrana qarşı sərt mövqedən çıxış etmir. Əksinə, Böyük Britaniya ilə İranın münasibətləri yaxşıdır və Avropa Birliyi ölkələri də bu məsələdə ABŞ-a qarşı çıxırlar və İranla həmrəylik nümayiş etdirirlər. Əgər İran beynəlxalq məhkəməyə müraciət etsə, qalib gəlmək şansı çoxdur. Çünki ABŞ-ın İrandan əsas istəyi İranın Suriyadan çıxması və Yaxın Şərqdəki ölkələrin daxili işlərinə müdaxiləni azaltmasıdır. Amma İran Suriyada qeyri-qanuni şəkildə qalmayıb. İran Suriya hakimiyyətinin dəvəti ilə o ölkədədir. Amma ABŞ-la Suriya arasında belə bir müqavilə olmayıb. ABŞ terror qruplaşmalarına qarşı mübarizə adı altında BMT-dən sanksiya alaraq koalisiya qüvvələrinin rəhbəri kimi orada idi. Aydındır ki, İran Orta Şərq ölkələrinin daxili işlərinə qarışır. Çünki İranın orada böyük geosiyasi maraqları var və o, qeyri-qanuni yollarla öz maraqlarını həyata keçirir. Amma beynəlxalq hüquq çərçivəsindən baxanda görürük ki, İranın bu məsələdə qalib gəlmək şansı daha çoxdur. İran da məhz buna güvənir. İran enerji resurslarından ildə milyardlarla dollar pul qazansa da, əhalinin vəziyyəti bu gəlirlərə uyğun deyil. Bunun əsas səbəblərindən biri xüsusilə son 6-7 ildə ölkənin xarici banklarda olan valyuta ehtiyatlarının xeyli hissəsinin ABŞ tərəfindən faktiki mənimsənilməsidir. Görünür, ABŞ həm də bu yolla İran iqtisadiyyatını çökdürməyə və əhali arasında narazılıq yaratmağa çalışır. Bütün bunlardan görünür ki, ABŞ İranı hərtərəfli zəiflətməyə çalışır. Lakin İranın məğlub olub geri çəkilməsi inandırıcı deyil”.

**❑ Əli RAİS, “Yeni Müsavat”**

---

# Paşinyan Köçəryanı azad edəcəkmi?..



**Hüseynbala SƏLİMOV**

**Yaddaşımız aldatmırsa, hələ iyun ayında KİV-lər xəbərlədilər ki, nəhayət, Rusiya prezidenti öz yüksək diqqətilə Ermənistanın baş naziri N.Paşinyanı və komandasını şərəfləndirmək qərarına gəlib və vəd edirdi ki, ilin oktyabr ayında dost ölkəyə rəsmi səfər edəcəkdir.**

Demək lazımdır ki, o vaxtdan, - bu isə bir aydan bir az çoxdur, - bu informasiyanı hər hansı formada təkzib edən bəyanat səslənməyib. Gəl, bu günlərdə məlum oldu ki, rəsmi Kreml hələ də Ermənistanı dost ölkə hesab edir, amma onun əvvəlki kimi həm də itaətkar olmasını arzulayır.

Odur ki, onsuz da öz Qafqazdakı kiçik “qalas”ında “Sorosun uşaqları”nın uşaq oyunlarından - özfəaliyyətindən bezmiş Rusiya prezidentinin ötən dəfələrdə olduğu kimi fikrindən daşınmaması və öz qərarını dəyişməməsi üçün bu ölkənin hələ dost sayılmayan hakimiyyəti irəlicədən müəyyən tələbləri yerinə yetirməlidir.

Daha dəqiq desək, Rusiya mənbələri ötən həftə xəbər verdilər ki, bu ölkənin xarici işlər naziri S.Lavrov erməni həmkarı Z.Mnatsakanyana çatdırıb ki, prezident V.Putinin gəlişinə qədər eks-prezident R.Köçəryan həbsdən azad edilməlidir...

Düşünürük ki, Paşinyan üçün bundan ağır, hətta təhqiramiz tələb düşünmək çətindir, çünki Köçəryan məsələsi erməni baş naziri üçün tək siyasi təhlükəsizlik məsələsi deyil, həm də prinsip məsələsidir, çünki onun inqilabi vədlərindən biri də məlum hadisələr zamanı dinc insanlara qarşı zor tətbiq etmiş və eyni zamanda hakimiyyəti uzurpasiya etmiş bir sıra adamların cəzalandırılması idi.

Amma səhv etmiriksə, hələ Kuzma Prutkov deyirdi: məsələnin kökünə bax! Paşinyanınsa ən çatışmayan cəhəti də məhz elə məsələlərin kökünə baxmamasıdır - bu siyasətə də aiddir, iqtisadiyyata da.

Odur ki, bu dəfə də erməni baş naziri bir mühüm məqamı nəzərə almır: güman ki, qeyd olunan hadisələr zamanı R.Köçəryan Rusiyanın razılığı və Kremlin təlimatı ilə hərəkət etmişdi.

Axı aydındır ki, Kremlin razılığı olmadan o, belə hərəkət edə bilməzdi. Paşinyan artıq bir ildən çoxdur ki, hakimiyyətdədi və bu müddət ərzində istənilən adam, xüsusən də yüksək hakimiyyət mənsubu başa düşməlidi ki, Ermənistan kimi ölkələrdə hətta xoruzlar belə səhərlər öz istəkləri ilə banlamırlar...

Artıq bir dəfə Paşinyanla Kremlin maraqları toqquşub -bəli, söhbət general Yu.Xaçaturovun həbsindən gedir. Kreml bir neçə dəfə işarə etdi ki, general onlar üçün tək KTMT-nin maraqları baxımından çox mühüm bir persona deyil, burada Kremlin məxsusi maraqları da var.

Amma Paşinyan generalın azad olunması haqda Kremlin tələblərini cavabsız qoydu və o vaxt yüngül şokla canını qurtara bildi - İrəvan onda KTMT-də yüksək postdan məhrum oldu.

Fəqət, bu, aysberqin görünən hissəsidi - erməni baş naziri dəfələrlə Rusiyanın, MDB-nin və Avrasiya Birliyinin ən müxtəlif tədbirlərində öz personasına qarşı soyuq münasibətlə qarşılaşmalı oldu.

Bəs bu dəfə hörmətli Vladimir Vovayeviç necə hərəkət edəcək? Birmənalı şəkildə cavab vermək çətindir. Bu yaxınlarda hamımız az qala diplomatik qalmaqala səbəb olacaq bir hadisənin şahidi olduq. Ən azı Rusiyanın XİN-nə bu kontekstdə izahat vermək lazım gəldi - söhbət rus diplomatların təzədən daşnakları “xatırlaması” haqqındadır.

Az vaxt keçməyib, amma yanılmırıqsa, məhz onlar-daşnaklar vaxtilə yeni seçilmiş Ermənistan parlamentinin üzvlərini birbaşa iclas zalındaca güllələbaran etmişdilər. Odur ki, yenə təbii sual yaranır: daşnaklar bunları öz təşəbbüslərilə etmişdi, yoxsa “yüksək tapşırığı” yerinə yetirmişdilər?

Düşünürük ki, bu sualların cavabını ermənilər özləri hamıdan yaxşı bilirlər. Paşinyanın hansı qərar qəbul edəcəyinə gəldikdə isə, biz yalnız bunu bilirik: əlbəttə, o, Kremlin tələbinə müqavimət göstərəcək və onun yerində istənilən normal siyasətçi belə edərdi, çünki necə deyər, cin artıq şüşədən buraxılıb və onu geri qovmaq elə də asan deyil, xüsusən də elə bir vaxtda ki, cəmiyyətin başını qarışdırmaq üçün digər mövzu da yoxdur, reytinqlər də gündən-günə düşür...

O da aydındır ki, Paşinyana asan başa gəlməyəcək bu, ona görə ki, Kreml Ermənistana qarşı təzyiq “rıçaq”larını işə salacaq. Amma onun sərəncamında daha effektli ssenarilər var. Aydın məsələdir ki, Paşinyan nə nüfuzda, nə xidmətdə, nə də ki, reytinqdə 90-cı illərdə prezident olan L.Ter-Petrosyanla müqayisə oluna bilməz. Amma Kreml elə bir əziyyət çəkmədən L.Ter-Petrosyanı yola saldı ki, qədim erməni ədəbiyyatı ilə məşğul olmaq üçün onun daha çox vaxtı və imkanı olsun...

YENİ MÜSAVAT
N 148 (7318) 16 iyul 2019

# "Türk axını" kəməri vaxtında istifadəyə veriləcək" - "Qazprom"

**"Türk axını" qaz kəmərinin Rusiya hissəsi üzrə tikinti çərçivəsində işlərin 99%-i artıq yerinə yetirilib.**




"APA-Economics"in Rusiya mətbuatına istinadən verdiyi məlumata görə, bunu "Qazprom" şirkətinin nümayəndəsi Oleq Aksyuta deyib.

Onun sözlərinə görə, kəmərin dəniz hissəsinin tikintisi ötən ilin noyabrında başa çatdırılıb və onun üzərində lazım olan test işləri aparılıb. Hər iki xətt hazırdır və qazın buraxılmasını gözləyir.

Qeyd edək ki, "Türk axını" Rusiyadan Qara dəniz vasitəsilə Türkiyəyə və Türkiyənin qonşu ölkələrlə sərhədinədək uzanacaq qaz kəməri layihəsidir. Kəmərin birinci xətti Türkiyə bazarının, ikinci xətti də Cənubi və Cənub-Şərqi Avropa ölkələri üçün nəzərdə tutulub. Hər xəttin nəql gücü ildə 15,75 mlrd. kubmetrdir.

O. Aksyutanın sözlərinə görə, Türkiyə ərsizində yerləşən qəbuledici stansiyanın tikinti işlərinin 87,3%-i yerinə yetirilib. Layihə üzrə işlər nəzərdə tutulan qrafikə uyğun aparılır və kəmərin istifadəyə verilməsi bu ilin dekabr ayında həyata keçiriləcək.

Onu da qeyd etmək lazımdır ki, Türkiyənin enerji təhlükəsizliyini və tranzit potensialını artıracaq başqa bir vacib qaz nəqli obyekti olan Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) artıq istifadəyə verilib. TANAP eyni zamanda tarixə Türkiyə, Yaxın Şərq və Avropanın ən uzun və ən geniş diametrli təbii qaz boru xətti kimi daxil olub.

"Şahdəniz-2" layihəsi çərçivəsində hasil olunan Azərbaycan təbii qazını əvvəlcə Türkiyəyə, sonra da Avropaya nəql edəcək Cənub Qaz Dəhlizinin ən önəmli həlqəsi olan TANAP-ın Türkiyə-Gürcüstan sərhədindən Əskişəhərə qədər olan hissəsi 2018-ci il iyunun 12-də keçirilmiş beynəlxalq açılış mərasimində istifadəyə verilib, iyunun 30-da isə Türkiyəyə kommersiya məqsədli qazın axını başlayıb.

Bundan əlavə, TANAP 1 iyul 2019-cu il tarixindən etibarən Azərbaycan qazının Avropaya nəql edilməsi üçün hazır vəziyyətə gətirilib. Dəhlizin son seqmenti olan Trans Adriatik Boru Kəməri (TAP) layihəsi də tamamlandıqdan sonra Azərbaycanın "Şahdəniz-2" layihəsi çərçivəsində çıxarılan təbii qaz TANAP və TAP kəmərləri vasitəsi ilə Avropaya nəql ediləcək. Avropaya qazın verilişinə başlayandan sonra TANAP vasitəsi ilə ildə 16 mlrd. kub metr "mavi" yanacaq (6 mlrd. kubmetr Türkiyəyə, 10 mlrd. kubmetr isə Avropaya) nəql ediləcək. Gələcəkdə bu göstəricini 31 mlrd. kub metrə çatdırmaq mümkün olacaq.



# Rusiya S-400 anlaşması ilə Türkiyəni tələyə saldı, yoxsa...

## Ankara ilə Vaşinqton arasındakı gərginlik növbəti mərhələyə keçir: **Elçin Mirzəbəyli:** "Türkiyə 1974-cü ildən sonra ilk dəfə idi ki, NATO üzrə müttəfiqlərinin deyil, öz maraqlarını əsas götürdü"

**ABŞ-ın davamlı etirazlarına və təhdidlərinə baxmayaraq, Türkiyə imzasına və sözünə sahib çıxaraq, iradə nümayiş etdirdi və Rusiya ilə anlaşmaya sadiq qaldı. Artıq keçən həftədən etibarən Türkiyəyə S-400-lərin gətirilməsi prosesi başlandı.**

Bununla da Vaşinqton və Ankara arasındakı gərginliyin növbəti mərhələyə adladığını söyləmək olar. Axar.az saytı bununla bağlı maraqlı təhlil yazısı hazırlayıb. Bildirilir ki, ABŞ-ı narazı salan əsas məqam Ankaranın NATO üzvü kimi Rusiya silahı alması və bununla beşinci nəsil təyyarə hesab olunan F-35 layihəsini təhlükə altına qoymasıdır. Vaşinqtonun fikrincə, bu sistemlər F-35-lərlə bağlı məlumatların gələcəkdə Rusiyanın əlinə düşməsinə imkan yaradacaq. Ankara isə bununla razılaşmır, F-35-lərin gözəgörünməz imkanının olması iddiasının S-400-lər vasitəsilə yox olacağı qorxusuna sahib olduğu fikrini təbliğat hesab edir.

Bəs bu proseslərin növbəti gedişatı nə deyir, S-400 Türkiyəni NATO-dan qoparacaqmı? Əslində Türkiyə prezidenti R.T.Ərdoğan ABŞ prezidenti D.Trampla görüşündən məmnun ayrılmışdı.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Osakada G-20 sammiti çərçivəsində ABŞ prezidenti Donald Trump-la görüşəndən sonra ümidvar olduğunu bildirmişdi ki, Vaşinqton Ankaraya qarşı Rusiyadan S-400 raket komplekslərini aldığına görə sanksiya yürütməyəcək. "Bizim ondan (Trampdan-red.] eşitdiyimiz odur ki, buna [sanksiyalara] bənzər heç nə olmayacaq", - Ərdoğan Osakada görüşdən sonra bildirmişdi. Trampın özü isə demişdi ki, ABŞ-ın əvvəlki administrasiyası Türkiyə ilə ədalətli rəftar etməyib, lakin eyni zamanda qeyd etmişdi ki, sanksiyalar məsələsi Vaşinqtonda hələ müzakirə edilməkdədir. Hesab olunur ki, Ankara hazırda bütün vasitələrlə ABŞ-ı özündən uzaqlaşdırmamağa çalışır və müxtəlif vasitələrlə yaranan problemi həll etməyə çalışır. Hətta ABŞ sanksiya tətbiq etsə belə, Ankara ABŞ-la əlaqələrini normallaşdırmağa cəhd göstərəcək. Lakin görünən budur ki, Ankaranın xoşməramlı davranışlarına rəğmən, ABŞ fərqli davranır.

Bəzi ekspertlər hesab edir ki, S-400 Türkiyə üçün başağrısına çevriləcək. Ancaq bunu Qərbin başağrısı sayanlar da var. Proseslərin Ankaranın NATO-dan çıxmasına gətirə biləcəyini zənn edənlər də tapılır. Hesab olunur ki, Türkiyəni Avrasiya Birliyinə cəlb etməyə, qazanmağa çalışan Rusiya Türkiyəni tələyə salıb. Bütün bu iddialarla bağlı ekspertlərimizə müraciət etdik.



**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, Türkiyənin Rusiyadan S-400 zenit-raket kompleksi alması qardaş ölkənin təhlükəsizliyi üçün zəruri bir addım idi və rəsmi Ankara milli maraqları əsas götürərək bu addımı atdı:** "Hesab edirəm ki, Türkiyənin Rusiyadan nə üçün S-400 zenit-raket kompleksi aldığının səbəblərini müəyyənləşdirmək üçün bir az öncəyə ekskurs etmək lazımdır. Türkiyənin israrlı tələblərinə baxmayaraq 2015-ci ilin oktyabrında ABŞ "Patriot" zenit komplekslərini bu ölkənin ərazisindən çıxardı. Bu komplekslər 2013-cü ildə Türkiyənin hava məkanını Suriya və İrandan gələn təhlükədən qorumaq üçün Qaziantepdə yerləşdirilmişdi. 2015-ci ildə Rusiya və Suriya hərbi hava qüvvələri əməliyyata başladıqdan sonra NATO müttəfiqinin müdafiəsini təmin etmək əvəzinə Patriot sistemlərinin Türkiyədən çıxarılmasının məqsədəuyğun olduğunu bəyan etdi. Türkiyə ərazisində "Patriot" zenit kompleksi batareyaları yerləşən Almaniya və Niderland da Alyansın bəyanatına uyğun davrandılar. NATO müttəfiqi olan Türkiyənin nəinki təhlükəsizliyini təmin etdi, əksinə, bölgədə fəallaşan Rusiya və İranla, həmçinin terror qrupları ilə qarşı-qarşıya və tək qoydu. Qənaətimə görə, məqsəd Türkiyəni Rusiya və İranla qarşıdurmaya çəkmək və bölgədəki münaqişə ocaqlarının sərhədlərini daha da genişləndirmək idi. Rusiyaya məxsus hərbi təyyarənin vurulması da məhz bu məqsədə xidmət edirdi. Yaranmış vəziyyət Türkiyəni çıxış yolu tapmağa məcbur edirdi. İlham Əliyev və Nursultan Nazarbayevin səyləri, Türkiyə və Rusiya liderlərinin soyuqqanlı davranışları Ankara-Moskva münasibətlərindəki gərginliyin azalmasına və əməkdaşlığa gətirib çıxardı. Və nəticədə S-400-lər artıq Türkiyədədir".

**E.Mirzəbəylinin sözlərinə görə, Türkiyə 1974-cü ildən sonra ilk dəfə idi ki, NATO üzrə müttəfiqlərinin deyil, öz maraqlarını əsas götürdü:** "Rusiyanın təqdim etdiyi əlverişli şərtlər də buna imkan yaratdı. Rusiyanın Türkiyəni tələyə saldığı barədə söylənilənlər isə bəsit, ilk ağıla gələn yanaşmalardan başqa bir şey deyil. Rusiya ilə normal münasibətlər Türkiyə üçün bütün müstəvilərdə əverişlidir. Rusiya nəhəng xammal ölkəsidir və Türkiyədə bu xammalın emalı, müxtəlif məhsulların istehsalı üçün əlverişli şərait var. Rusiya nəhəng bazardır və Türkiyənin aqrar, sənaye və tikinti sektorunun bu bazara ehtiyacı var. Avropa ölkələrinin heç biri Türkiyə biznesinə Rusiyanın yaratdığı şəraiti və imkanları yaratmırlar, əksinə, bu məsələdə onlar Türkiyə ilə rəqabətdədirlər. Digər tərəfdən, Rusiya bazarına maneəsiz çıxış Türkiyəyə təkcə bu ölkənin sərhədləri çərçivəsində iqtisadi manevr imkanları yaratmır, eyni zamanda Avrasiya məkanının nəhəng bir hissəsinə çıxış imkanları verir, Rusiyanın təsir dairəsinə daxil olan ölkələrlə əməkdaşlıq imkanlarını maneəsiz genişləndirmək imkanı yaradır. Bunun alternativini ABŞ, yaxud Avropa İttifaqı təqdim edirmi? Yox, etmir. Türkiyə ilə NATO üzrə müttəfiqlik bağlarının qırılması isə hazırda heç kimin, o cümlədən ABŞ və NATO-nun digər üzv dövlətlərinin də marağında deyil. Bu bağ qırılarsa, regionda yeni və kifayət qədər güclü hərbi-siyasi ittifaqın formalaşması üçün zəmin yarana bilər. Bu baxımdan ABŞ-ın Türkiyəyə münasibətdə kökə və zopa siyasətini hələlik davam etdirəcəyini düşünürəm. Türkiyə üçün daha əlverişli şərtlər irəli sürülə bilər. ABŞ-ın Türkiyəyə qarşı kəskin addımlar atmayacaq. Ən azı prezident seçkilərinədək bu siyasət davam edəcək".

**Politoloq Məhəmməd Əsədullazadə isə artıq S-400-lərin hissəsinin artıq Türkiyəyə gətirildiyini deyərək bildirdi ki, bununla iki ölkə strateji hərbi əməkdaşlıq müstəvisində yeni mərhələyə start verdi:** "Bu, həm də Türkiyə ilə NATO arasında soyuq münasibətlərin başlanmasının başlanğıcı oldu. Xüsusi olaraq qeyd edim ki, S-400 ZRK-nın 12-15 iyul arası Türkiyəyə daşınmasının hərbi çevrilişə cəhd günü ilə üst-üstə düşməsi Qərbə mesajıdır. NATO-nun Rusiyaya qarşı kəskinləşən siyasi-hərbi doktrinası fonunda Ankaranın Moskva ilə hərbi-texniki əməkdaşlığı Alyansda çatların baş verməsinə və Moskvanın bu təşkilat üzərində psixoloji və siyasi qələbəsinə gətirəcək".

M.Əsədullazadə hesab edir ki, Türkiyə rəhbərliyi bu silahları almaqla, Rusiya ilə siyasi yaxınlaşmaqla 2016-cı il iyul hərbi çevrilişində ona dəstək olan Moskvaya minnətdarlıq və Qərbə qarşı öz dirənişini nümayiş etdirdi. Bununla demək olar ki, Ankara artıq Qərbin bir nömrəli hədəfi halına gəldi".

**❑ E.PAŞASOY, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 148 (7318) 16 iyul 2019



# Qarabağa dair ortaq və optimal "yol xəritəsi"

## Azərbaycanla silahlanma yarışında ayaqlaşa bilməyən işğalçı ölkənin bir yolu qalıb...

**Ermənistanda daxili durum, daha dəqiqi, erməni ictimai rəyi Dağlıq Qarabağa dair hər hansı sülh anlaşmasını hələ ki mümkünsüz edir. İşğalçı ölkədə hakimiyyət dəyişikliyi də bu reallığa təsir göstərə bilmədi. Yeni baş nazir Nikol Paşinyan özünün cəmiyyətdəki yüksək reytinqi və legitimliyindən istifadə edib öz xalqını konstruktiv sülhə hazırlamağa çalışmadı. Daha dəqiqi, buna cəhd etmədi.**




Paşinyan buna risk etmədi. Halbuki artıq anlamamış deyil ki, onun öz xalqına vəd elədiyi iqtisadi islahatlar, yüksək həyat səviyyəsi Dağlıq Qarabağ məsələsində ciddi dönüş olmayınca, yəni işğal altındakı ərazilər azad edilməyə başlamayınca, qısası, qonşu Azərbaycan və Türkiyə ilə sülh əldə edilməyincə mümkün olmayacaq. Bu fonda atəşkəs rejimini qoruyub saxlamaq isə getdikcə daha çətin olacaq.

Mövcud vəziyyətdə indi iki çıxış yolu qalır: ya müharibə, ya da Ermənistanı təzyiq yolu ilə, zorla sülhə vadar etmək. Məntiqlə, müharibədənsə, işğalçını sülhə məcbur etmək ən optimal yol kimi görünür. Təəssüf ki, bu da hələ ki mümkünsüzdür. ATƏT-in Minsk Qrupunun üç həmsədr dövləti, özəlliklə də Rusiya bu yöndə maraqlı və qərarlı deyillər.

Konkret olaraq, Moskva nə özü Qarabağ "düyünü"nü açmağa həvəs göstərir, nə də digər potensial vasitəçilərə bunu etməyə imkan yaradır. Rusiya hər iki münaqişə tərəfinə, xüsusən də Azərbaycana silah-sursat satmaqla, üstəlik, münaqişə hesabına öz büdcəsini zənginləşdirir, eyni zamanda Bakıya öz ərazilərini güc yolu ilə azad eləmək üçün "dobro" da vermək istəmir.

Hərçənd son vaxtlar qardaş Türkiyə ilə Rusiya arasında bütün sahələr üzrə əlaqələrin genişlənməsi, Moskva və Ankaranın Yaxın Şərq, Suriya məsələlərində intensivləşən əməkdaşlığı nə vaxtsa Qarabağla bağlı da hansısa ortaq və optimal "yol xəritəsi" üzərində iş aparılacağına dair ümidlər yaradıb. Başqa sözlə, Suriya ilə bağlı hər hansı uğurlu ortaq presedentin Cənubi Qafqaza da müsbət mənada sirayət edəcəyi gözləntisi yox deyil.

Bütün hallarda, bir şey dəqiqdir və bunu Rusiyada daxil, vasitəçi dövlətlərin hamısı yaxşı bilir ki, Azərbaycan öz qanuni torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq, ərazisində daha bir qondarma erməni dövlətinin yaradılmasına heç vaxt razı olmayacaq. Əksinə, problemin həllini yaxınlaşdırmaq üçün özünün hərbi qüdrətini durmadan artıracaq. Çünki işğalçıya güc tətbiqi hədəsinin özü də onu sülhə vadar eləmək üçün təzyiq üsullarından biri sayılır.

Bundan əlavə, kasad maliyyə resursları səbəbindən silahlanma yarışında işğalçı ölkənin Azərbaycanla ayaqlaşa bilməməsi də xeyrimizə işləyən mühüm faktorlardan biridir. Heç şübhə yox ki, blokada rejimində olan cırtdan Ermənistanın öz olan-qalan resurslarını da silah-sursata yönəltməsi onun əhalisinin onsuz da ağır olan güzəranını getdikcə daha dözümsüz hala gətirəcək, ölkədən kütləvi köç güclənəcək, bütün bunların nəticəsi olaraq, işğalçı orduya çağırışçı problemi özünü daha qabarıq şəkildə büruzə verəcək.

Əlbəttə ki, bu bizim yox, ermənilərin, Ermənistanın və onun rəhbərliyinin problemidir. Ermənistan, nəhayət, normal inkişaf yoluna çıxmaq, blokadadan və ağır sosial-iqtisadi durumdan qurtulmaq istəyirsə, yolu çoxdan məlum. Seçim həmişəki kimi İrəvanın, erməni xalqınındır. Dəfələrlə yazdığımız kimi, düşmən tərəf sülhü arzulayırsa - sülhü, müharibə istəyirsə - müharibəni alacaq...

# RAİ: "MeqaFonun Qarabağı müstəqil dövlət sayması Rusiya-Azərbaycan münasibətlərinə təhlükədir"

## Rusiya Azərbaycanlıları İttifaqı MeqaFon mobil operatorundan qərarın dərhal dəyişdirilməsini tələb edir

**"Rusiyanın ikinci böyük mobil operatoru MeqaFon növbəti dəfə Azərbaycanın ərazi bütövlüyünə saygısızlıq nümayiş etdirib". Musavat.com xəbər verir ki, bu barədə ötən gün Rusiya Azərbaycanlıları İttifaqının prezidenti Fizuli Məmmədovun adından yayılan bəyanatda bildirilir.**


Fizuli Məmmədov

Bəyanatda daha sonra deyilir: "Beynəlxalq hüquqa, Rusiya ilə Azərbaycan arasında mehriban qonşuluq və strateji tərəfdaşlıq münasibətlərinə məhəl qoymayan MeqaFon Ermənistan tərəfindən işğal edilən, Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağı öz xidmət xəritəsində müstəqil dövlət kimi göstərib. Şirkət Azərbaycanla Qarabağın guya fərqli ərazilər olduğunu vurğulamaq üçün danışıq tariflərini uyğun olaraq hər dəqiqə üçün 25 və 20 rubl müəyyən edib. Rusiya Azərbaycanlıları İttifaqı Rusiyanın nəhəng rabitə şirkətlərindən olan MeqaFonun bu qərarından hiddətləndiyini bildirir, baş verənləri erməni separatçılarının lehinə provokasiya sayır, bu cür provokasiyaların Rusiya-Azərbaycan münasibətlərinə mənfi təsir göstərəcəyindən narahatlıq keçirir".

**MeqaFonun qərarına etiraz edən RAİ mobil operatoru beynəlxalq hüquq normalarına əməl etməyə çağırır:** "MeqaFon şirkətinə xatırlatmaq istəyirik ki, ərazisində hüquqi şəxs kimi fəaliyyət göstərdiyi Rusiya Federasiyası Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyır, eyni zamanda Azərbaycanı özünün Güney Qafqazda ən etibarlı tərəfdaşı hesab edir. Ölkələrimiz arasında mehriban qonşuluq və strateji tərəfdaşlıq münasibətlərini bir neçə həftə öncə Avropa Şurası Parlament Assambleyasında Rusiyanın yenidən qurum üzvlüyünə bərpasının müzakirələri bir daha sübut edib - Azərbaycanın AŞPA-dakı nümayəndə heyəti tam tərkibdə Rusiyanın quruma tam hüquqlu üzv kimi bərpasının lehinə səs verdi. Vurğulayaq ki, MeqaFonun Rusiya Federasiyasının dövlət maraqlarını aşaraq maraqlarına xidmət etdiyi Ermənistanın parlament nümayəndə heyəti üzvlərinin yarısı bu qərarın əleyhinə səs verib. Biz MeqaFon şirkəti rəhbərlərinin diqqətini 1997-ci il iyulun 3-də Azərbaycan prezidenti Heydər Əliyevlə Rusiya prezidenti Boris Yeltsinin imzaladığı "Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında dostluq, işbirliyi və təhlükəsizlik" müqaviləsinə də yönəltmək istəyirik. Fikrimizcə, şirkətin Azərbaycan ərazilərini müstəqil dövlət kimi göstərmək provokasiyası bu önəmli dövlət sənədinin ruhuna, eyni zamanda öhdəliklərinə ziddir".

**Sənəddə ardınca MeqaFon rəhbərliyinin anti-Azərbaycan addımlarının arxasında nələrin dayandığından təşkilatın xəbərsiz olduğu vurğulanır:** "Görünür, şirkət rəhbərliyində Qarabağ separatçılarına simpatiya duyan şəxslər var ki, MeqaFon onların təsiri ilə iki ölkə arasında rəsmi qərarlarla təsdiq edilmiş öhdəlikləri pozaraq Dağlıq Qarabağı ayrıca ərazi vahidi kimi göstərib və oraya beynəlxalq danışıq tarifləri tətbiq edib. Rusiya Azərbaycanlıları İttifaqı baş verənləri yüksəlişdə olan Rusiya-Azərbaycan münasibətlərinə ziyan vurmaq üçün düşünülmüş addım sayır. Bir daha mobil operator rəhbərliyinin diqqətinə çatdırırıq ki, "Dağlıq Qarabağ Respublikası" adlı dövlət yoxdur, dövlət kimi göstərilən ərazilər Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunan əraziləridir. Beynəlxalq hüquq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi sayır və BMT-nin Ermənistan qoşunlarının işğal edilən Azərbaycan torpaqlarından, o sıradan Dağlıq Qarabağdan çıxarılması ilə bağlı 4 qətnaməsi var".

**Sonda RAİ Rusiyada yaşayan azərbaycanlılar arasında yetərincə populyar olan mobil operatorun belə bir qərarından təəssüf hissi keçirdiyini bildirir.** "Bu gün Rusiyada yaşayan, işləyən yüz minlərlə azərbaycanlı MeqaFonun abunəçisidir. Biz şirkət rəhbərliyini məsuliyyətə dəvət edir, beynəlxalq hüquq normalarına zidd, iki ölkə arasında münasibətlərin sərinləşməsinə səbəb olan bu qərarın dərhal dəyişdirilməsini tələb edirik", - deyə təşkilatın bəyanatında qeyd olunur.

# "Hazırkı durumda sülhməramlı qüvvələrin Qarabağda yerləşdirilməsindən söhbət gedə bilməz" - Arzu Nağıyev

## Vaşinqton görüşündən sonra bu mövzu yenidən gündəmə çıxarılıb; **politoloq:** "İran düşünür ki, sülhməramlılar adı altında NATO qoşunları onun sərhədinə yaxınlaşa bilər və buna təbii ki, imkan verməməyə çalışacaq"

**Qarabağ danışıqlarında növbəti taym-aut müşahidə olunur. Bu arada erməni təxribatlarına müəyyən fasilə verilsə də, təmas xəttində hər an növbəti gərginliyin baş verə biləcəyi şübhə doğurmur.**

Bu il ərzində Paris, Moskva və Vaşinqtonun ev sahibliyi ilə hər üç həmsədr Qarabağ danışıqlarına moderatorluq etdi. Lakin hələlik danışıqlarda prinsipial razılaşmanın əldə olunduğunu demək mümkün deyil. Hətta humanitar sahədə əməkdaşlıq etmək də mümkün olmayıb. Belə ki, Ermənistan əsir və girovların "Hamını hamıya" prinsipi ilə dəyişdirilməsinə qarşıdır. Son zamanlar vaxtaşırı belə xəbərlər dolaşır ki, həmsədr ölkələr bölgədə sülhməramlı qüvvələrin yerləşdirilməsi üçün planlar hazırlayır. Bir sıra hallarda bu üç dövlətin həmin planla bağlı yarışdığı iddia olunur. Hesab olunur ki, İran ətrafında kritik vəziyyətin yaranması şəraitində aparıcı güclər bu ölkə ilə həmsərhəd rayonlardan erməni işğalçılarını çıxartmaqla öz qüvvələrini həmin əraziyə gətirmək istəyirlər. Bu mənada sülhməramlıların yerləşdirilməsini təhlükəli sayanlar da kifayət qədərdir. Hesab olunur ki, bir neçə rayonun qaytarılması hesabına sülhməramlı qüvvələrin bölgəyə yerləşdirilməsi Azərbaycanın işğaldakı digər ərazilərini qaytarmasını əngəlləyəcək faktora çevrilə bilər.

Yeri gəlmişkən, Qarabağ Komitəsi iyulun 23-də-Ağdam rayonunun işğalı günündə mitinq keçirmək qərarına gəlib. Mitinq müzakirələrinin sonunda "Azərbaycan ərazisinə beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsinə dair Qarabağ Komitəsinin mövqeyi haqqında" sənəd qəbul edilib. Sənəddə deyilir ki, Qarabağ Komitəsi mövcud hərbi-siyasi status-kvonun saxlandığı şəraitdə Azərbaycan ərazisində hər hansı tərkibdə və statusda sülhməramlı qüvvələrin yerləşdirilməsini və bu sahədə sənədlər imzalanmasını defakto işğalın deyure tanınması olduğuna görə yolverilməz hesab edir. Sənəddə həmçinin bildirilir ki, Qarabağ Komitəsi hesab edir ki, işğalçı Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisindən tamamilə çıxarıldıqdan, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa edildikdən sonra Azərbaycan dövləti və onun orqanları Azərbaycanda yaşayan dinc erməni əsilli Azərbaycan vətəndaşlarının həyat və sağlamlıqlarının təhlükəsizliyinə, habelə Azərbaycan Konstitusiyasında, beynəlxalq hüquqda vətəndaş üçün təsbit olunmuş bütün hüquq və azadlıqlara, milli hüquq və azadlıqlara təminat verə, yerinə yetirmək əzmindədirlər. Ona görə də bunun üçün xarici sülhməramlı qüvvələrə ehtiyac yoxdur.



**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a dedi ki, hazırkı durumda sülhməramlı qüvvələrin yerləşdirilməsindən söhbət belə gedə bilməz:** "Fikir versəniz, görərsiniz ki, son vaxtlar heç sülhməramlılar olmadan da atəşkəsə riayət olunur. Təbii ki, bunun kimə xeyir edib-etməməsi artıq başqa məsələdir. Sülhməramlı məsələsi də ABŞ-da keçən görüşdən sonra meydana çıxıb. Əgər Madrid prinsiplərinə uyğun olaraq işğal edilən ərazilərdən işğalçı qoşunlar çıxarsa, digər addımlar atıla bilər. Azərbaycan heç cür razı ola bilməz ki, qoşunların təmas xəttində, yəni Azərbaycan ərazilərində sülhməramlı qüvvələr olsun. Həmin qüvvələrin olması belə BMT və ATƏT-lə razılaşdırılmalıdır və marağı olmayan dövlətlərin nümayəndələrindən təşkil edilə bilməz. Təbii ki, buraya Rusiya, Fransa, ABŞ da daxildir". **Türkiyəyə gəldikdə, A.Nağıyev dedi ki, onların burada olmasını Ermənistan tərəfi qəti şəkildə qəbul etməz:** "Bundan başqa, son vaxtlar qondarma "DQR"i tərəf kimi gündəmə gətirməyə çalışan Ermənistan sülhməramlı məsələsini də Ermənistan XİN-in rəhbəri Mnatsakanyanın Bako Saakyan və Masis Mailyan ilə görüşündən sonra daha da aktiv şəkildə təbliğ edir". **Politoloq təsdiqlədi ki, İran-ABŞ arasındakı gərginlik də bu prosesə təsir edən amillərdəndir:** "İran düşünür ki, sülhməramlılar adı altında NATO qoşunları onun sərhədinə yaxınlaşa bilər və buna təbii ki, imkan verməməyə çalışacaq və bu münaqişənin gərginliyi region dövlətlərinə də gərək deyil. Digər neytral dövlətlərin isə hansı kriteriyalar üzrə seçilməsi çox çətin məsələdir. Hətta seçilsə belə, onların işinin tək sülhməramlılıq olacağı böyük sual altındadır. Deməli, ölklərin seçimi də elə aparılmalıdır ki, regional aktyorlar və iştirakçı dövlətlər bundan ancaq faydalansınlar. Bir sözlə, bu məsələ yaxın gələcəyin işi deyil və buna qədər görüləcək işlər həddən artıq çox və çətindir".

**Ermənişünas alim, politoloq Qafar Çaxmaqlı isə bildirdi ki, Dağlıq Qarabağda sülh danışıqları bir nəticə verəcəyi təqdirdə buraya sülhməramlı qüvvələrin yerləşdirilməsi şərt olaraq qoyulub:** "Minsk Qrupunun təklif etdiyi Madrid prinsiplərində də bu var. Amerika ilə Rusiya arasında uzun illər rəqabət də bunun üstündə olub. Hansı qüvvələr? Rusiyanın təklif etdiyi və ona bağlı qüvvələrmi, yoxsa beynəlxalq güclərmi? Son vaxtlar bu mövzunun gündəmə gətirilməsi göstərir ki, hər iki supergüc bu məsələdə anlaşıb". **Q.Çaxmaqlı qeyd etdi ki, sülhməramlılar təkcə Rusiyaya aid olmayacaq:** "Amerika Konqresində son ermənipərəst qərar da - münaqişənin yalnız sülh yolu ilə həll edilməsi ilə bağlı - göstərir ki, bu güclər Azərbaycana öz ərazilərini hərbi yolla azad etmək imkanı verməyəcəklər". Ekspert dedi ki, İran ətrafındakı olayların bu məsələlərə müsbət təsir edəcəyi ilə bağlı səslənən fikirlərə də yer qalmayacaq: "Biz sülhməramlıların burada yerləşdirilməsi məsələsini nəzarətdən çıxarmışıq. Artıq bu məsələni də başqa ölkələr həll edir. Kimin sülhməramlı qüvvələri bizə sərf edir məsələsinə gəlincə, onların heç biri Azərbaycanın maraqlarına xidmət etməyəcək. Dağlıq Qarabağı bu proseslər bizdən daha da uzaqlaşdıracaq. Bu məsələdə mən Türkiyənin aktiv rol almasını arzulayardım. Ermənistan Türkiyə sülhməramlılarının buraya gəlməsinə əvvəldən qarşı çıxır. Amma şərt olaraq biz də onu irəli sürə bilərik ki, beynəlxalq güclərin tərkibində Türk ordusu da olsun".

❑ **E.PAŞASOY,
"Yeni Müsavat"**

# Türkiyə Suriyanın şimalında kürdlərə qarşı əməliyyat hazırlayır - iddia



## Putinin elçiləri isə Əsədi İdlibdə sülhə razılaşdırmaq üçün Dəməşqə gedib

**Türkiyə ordusu son bir həftədir Suriya ilə sərhədə ordu toplayır. Londonda nəşr olunan "Qüds əl-Ərəbi" qəzeti Ankaranın sərhədə yığdığı qüvvələrin əsas məqsədinin kürdlər, daha dəqiqi, Suriyanın kürd bölgələrinə qüvvə toplayan Səudiyyə Ərəbistanı və BƏƏ olduğunu yazıb.**

Qəzetin iddiasına görə, Türkiyə ordusu Suriya ilə sərhədin məhz kürdlərin nəzarətində olan bölgəsinə səssiz şəkildə ordu toplayır. Maraqlıdır ki, ötən həftə ABŞ administrasiyası bri neçə Avropa ölkəsinə müraciət edərək Suriyaya hərbi qüvvə göndərməyə çağırıb. Almaniya hökuməti artıq imtina cavabı verib. Yeri gəlmişkən, bir neçə ay əvvəl ABŞ prezidenti körfəzin ərəb dövlətlərinə müraciət edərək Suriyanın şimalına hərbi qüvvə göndərməyə çağırıb. Hətta ötən ilin noyabrında BƏƏ və Səudiyyə Ərəbistanı hərbi və mülki məmurlardan ibarət heyətlərin Suriyanın kürdlərin nəzarətindəki bölgələrinə səfər etməsi haqda xəbərlər yayılmışdı. Bundan sonra isə Səudiyyə Ərəbistanı kralı Suriyanın kürd bölgələrinin yenidən qurulması üçün 100 milyon dollar yardım ayırıb.

Qətər mediasının iddiasına görə, ərəb və Avropa ölkələrinin orduları Suriyanı tərk edən ABŞ hərbi qüvvələrinin yerini almalıdır. Türkiyə hökumətindəki mənbələr isə qəzetə bildirib ki, yüksək səviyyəli Səudiyyə Ərəbistanı və BƏƏ rəsmiləri bir qədər əvvəl Suriyanın kürd bölgələrində, konkret olaraq Ayn əl-Arabda YPG və Suriya Demokratik Qüvvələri (SDQ) liderləri ilə görüşlər keçirib və ərəb rəsmilər kürdlərə maliyyə yardımını artıracaqlarını söz veriblər.

Buna cavab olaraq Türkiyə hakimiyyəti Azad Suriya Ordusu və Suriya Milli Ordusu qruplarının təmsilçilərini Ankarada toplayıb və paralel olaraq Əl-Bab və Cerablusda hərbi hazırlıq vəziyyəti yüksəldilib. Həmçinin tayfa liderləri ilə müzakirələr aparılıb.

Qeyd edək ki, ötən həftə sonu Rusiya XİN rəhbərinin müavini Sergey Verşanin və eləcə də prezident Putinin Suriya üzrə xüsusi təmsilçisi Aleksandr Lavrentiyev Dəməşqə gələrək prezident Bəşər Əsədlə görüşüb. Geniş məlumat verilməsə də, görüş zamanı İdlib vilayətindəki vəziyyət və Suriya Konstitusiya Komitəsi ilə bağlı müzakirələr aparıldığı bildirilib. Açıqlamada "tərəflərin İdlibdə sabitliyin təmin olunmasının önəminə diqqət edərək məsələnin detalları üzərində müzakirə aparıldığı" qeyd olunub.

Xatırladaq ki, son aylarda Suriya ordusu Hama və İdlib sərhədinə çoxlu sayda qüvvə yığıb və bir neçə dəfə silahlılarla hökumət qüvvələri arasında toqquşma baş verib. Hazırda da ara-sıra toqquşmalar baş verir. 2018-ci ilin sentyabrında Türkiyə və Rusiya arasında əldə olunmuş anlaşmaya əsasən İdlibdə atəşkəs və silahsızlaşdırılmış bölgə yaradılmalı idi. Ancaq rəsmi Dəməşq atəşkəsin pozulmasını əsas gətirərək zaman-zaman bu bölgəyə zərbələr endirir.

Belə görünür ki, İdlibdə atəşkəslə bağlı Rusiya və Türkiyə arasında razılaşma var. Putinin xüsusi elçilərini Dəməşqə göndərib İdlibi müzakirə etməsi onu göstərir ki, Moskva hələlik İdlibdə yeni əməliyyatın başlamasını istəmir. Türkiyə isə hərbi qüvvələri kürdlər olan bölgəyə toplayır. Çünki ilk gündən Ankara üçün əsas məsələ kürdlərin Suriyanın şimalında Türkiyə ilə sərhəd boyu ərazidə möhkəmlənməsidir. Bu səbəbdən də indi Ankara Moskva vasitəsilə İdlibdə atəşkəsi qoruyub saxlamaq və hərbi gücü kürdlərə qarşı yönəltmək istəyə bilər. Yeri gəlmişkən, ötən həftə Türkiyə ordusu İraqın şimalında PKK-ya qarşı hərbi əməliyyatlara başlayıb.

Ankara ABŞ-ın bölgədən çıxması prosesində başqa ölkələrin bölgədə möhkəmlənməsinin qarşısını almaq, eləcə də digər region ölkələrinin kürd bölgəsində hərbi mövcudluq yaratmasına mane olmaq, həmçinin kürdləri Suriya-Türkiyə sərhədindən uzaqlaşdırmaq üçün əməliyyat hazırlayır. Yeri gəlmişkən, sonuncu məsələ ötən ildən bu yana Amerika hökuməti ilə müzakirə olunur və rəsmi Vaşinqton prinsip olaraq buna etiraz etmir.

Əgər ərəb mediasının yazdıqlarına inansaq, o zaman yaxın dövrdə Türkiyənin məhz Fəratın şərq sahilində, eləcə də Suriya-Türkiyə sərhədində hərəkətə keçəcəyini görə biləcəyik. Əlbəttə, Vaşinqtonun ciddi müqaviməti ortaya çıxmasa. Xatırladaq ki, ABŞ prezidenti Donald Tramp ötən ilin dekabrında hərbi qüvvələri Suriyadan çıxaracağını elan edib. Ancaq daha əvvəl 100 gün elan edilən bu proses sonradan uzanıb. Hazırda əksəriyyəti kürdlərin nəzarət etdiyi şimal bölgəsində olmaqla, ABŞ-ın Suriyada 26 hərbi bazası var. Bir hərbi baza isə Suriyanın şərqində Tənf hərbi hava bazasıdır ki, bura yerli silahlı müxaliflər nəzarət edir.

Türkiyənin bu addımı Vaşinqtonun bölgəyə başqa ölkələri cəlb etmək planının qarşısını almaq və sərhədi təmizləməyə xidmət edir. Belə anlaşılır ki, bu plan Rusiya ilə və təbii ki, əgər Vaşinqton da etiraz etməsə, demək ki, Trampla da razılaşdırılıb.

❑ **Kənan RÖVŞƏNOĞLU,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 148 (7318) 16 iyul 2019

# Terror kimi yol qəzaları - insan faktoru, yoxsa...

## Nəqliyyat eksperti belə qəzalardan qaçmağın yollarından danışır; sərnişin daşıyan maşınlar üçün sürət həddinin 90-dan artıq olmaması təklif edilir

**1 həftə əvvəl Ələt-Astara yolunun 135-ci kilometrliyində baş verən, 8 nəfərin ölümü ilə nəticələnən dəhşətli yol qəzasının ardından Ələt yolunda daha bir oxşar qəza baş verib. İlkin məlumatlara görə, sərnişinlə dolu mikroavtobus sürücüsünün ürək tutması nəticəsində idarəetməni itirib. Nəticədə mikroavtobus yoldan çıxaraq aşıb. Qəza zamanı 1 nəfər sərnişinin öldüyü, bir neçəsinin xəsarət alması haqda xəbərlər var.**

Bu tip qəzaların əksəriyyətinin səbəbi sürət həddinin aşılması və sürücülərin sükan arxasında yatması üzündən baş verir. Bir çox ölkələrə sərnişin daşıyan mikroavtobus və avtobuslara isə yolda müəyyən edilən sürət limiti 110-120 olsa da, onlara yalnız 80-90-la sürmək icazəsi verilir. Əks halda, radara düşür və yüksək məbləğdə cərimələnirlər. Ekspertlər bu qaydanın Azərbaycanda da tətbiqini vacib sayır.

**Ekspert, avtosfer.az saytının baş redaktoru Elməddin Muradlı** deyir ki, belə halların qarşısının alınması üçün illərdir inkişaf etmiş ölkələrdə taxoqraflardan istifadə edilir. Azərbaycanda da taxoqrafların ölkədaxili marşrut avtobuslarında tətbiqi "Yol hərəkəti haqqında" Qanuna edilən son dəyişikliklərdə nəzərdə tutulub: "Dəyişikliklərə görə, sərnişindaşıma ilə məşğul olan bütün növ avtobuslarda və yük maşınlarında taxoqrafların quraşdırılması nəzərdə tutulurdu. Taxoqrafların quraşdırılmasının məqsədi belə hadisələrin qarşısının alınması, sürət həddinin aşılması və s. məsələlərə nəzarət mexanizmini təmin etməkdir. Nəqliyyat vasitəsi nə vaxt işə salındı, neçə kilometr yürüş etdi, sürücü sükan arxasında neçə saat olub və s. qeydiyyatını aparır. Əgər nəqliyyat vasitəsi sürət həddini aşırsa, bu da qeydə alınır. Bakıda illərdir fəaliyyət göstərən "Rent a car" şirkətləri taxoqraflardan istifadə edirlər. Vətəndaş şirkətdən avtomobili kirayəyə götürür. Həmin avtomobilin harada olduğu, saatda neçə kilometr və hansı sürətlə hərəkət etdiyi şirkətin dispetçerləri tərəfindən izlənilir. Sürücü sürət həddini aşırsa, ona zəng vurub xəbərdarlıq edirlər. Hətta sürücü xəbərdarlığa məhəl qoymasa, dispetçer nəqliyyat vasitəsinin mühərrikini öz kompüterindən söndürmək imkanına malikdir. Əvvəllər beynəlxalq sərnişin və yükdaşıma ilə məşğul olan şirkətlərə taxoqrafdan istifadə etmək qanunla tələb olunurdu. Taxoqrafsız nəqliyyat vasitələri beynəlxalq daşımalara buraxılmırdı. Son vaxtlar sərnişin avtobuslarının iştirakı ilə baş verən dəhşətli sonluqlu yol-nəqliyyat hadisələri qanunvericiliyin dəyişilməsinə səbəb oldu".

**Ekspertin sözlərinə görə, "Yol hərəkəti haqqında" Qanuna görə, taxoqrafların ölkədaxili sərnişin və yükdaşıma ilə məşğul olan şirkətlərin nəqliyyat vasitələrində quraşdırılması məcburidir:** "Sürücülər bu cihazı almaqda maraqlı deyillər. Pulsuzluqdan şikayət edirlər. Halbuki bir çoxunun belə cihazları almaq imkanı var. Qanuna dəyişiklik oldu, amma rayonlararası, uzaq səfərlərə çıxan avtobuslara hələ də taxoqraf quraşdırılmayıb. Quraşdırılan taxoqraflar isə hansısa aksesuar kimi avtobuslarda yer tutur, işlək vəziyyətdə deyil. Qanun yeni qəbul olunub, görünür, lazımi səviyyədə icrası bir müddət vaxt aparacaq. Qanuna görə, sükan arxasına keçən şəxs maksimum 4 saat nəqliyyatı idarə edə bilər. 4 saatın tamamında nəqliyyat vasitəsinin hərəkəti dayandırılmalı, sürücü əvəzlənməlidir. Əks halda, nəqliyyatın hərəkəti yolverilməzdir. Amma bu gün sürücülər var ki, az qala, 24 saat çalışırlar. Belə sürücülərin qəza törətməsi də təbiidir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi taxoqrafların quraşdırılmasına nəzarət etməlidir. Sərnişindaşıma ilə məşğul olan şirkətlər qanunun tələbini yerinə yetirmək üçün hərəkətə keçməlidirlər. Ələt yolunda qəzaya düşən mikroavtobusun sürücüsünün danışıqlarından aydın olur ki, adam yüksək sürətlə nəqliyyat vasitəsini idarə etməyi hobbiyə çevirib. Belə hallar yolverilməzdir. Azərbaycanda sərnişin daşıyan avtobusların icazə verilən maksimal sürət həddi 90 kilometr saatdır. Mikroavtobuslarla bağlı isə belə bir tələb yoxdur. Ona görə də sürücülər az qala 150-160-la mikroavtobus idarə edirlər. Uzaq yola çıxan sürücülər tez bir zamanda mənzil başına çatmaq üçün sürət həddini aşırlar və nəticədə Ələt yolunda baş verən dəhşətli qəza kimi olaylar meydana çıxır. Qanunlar qəbul olunur, amma icra mexanizmi işlərlə işlənməmiş qalır. Qanuna dəyişikliklər ediləndə icrası ilə bağlı da qeydlər olur. Qanuna dəyişiklik ediləndə icra mexanizminin işlənib hazırlanması üçün 3 ay müddət nəzərdə tutulub. Həmin müddət çoxdan ötüb. Müvafiq dövlət qurumları işlərinə səhlənkar yanaşırlar. Düşünürlər ki, taxoqrafların tətbiqi ilə bağlı daşımaçı şirkətlərin üstünə düşəcəklər, şirkət gedib alacaq, quraşdıracaq. Buna kim nəzarət edəcək kimi suallar da ortaya çıxacaq. Ona görə də qanunu qəbul etməzdən əvvəl icra mexanizmi də düşünülüb işlənməlidir".



**Elməddin Muradlı deyir ki, Nəqliyyat Nazirliyi Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə birləşdirilməzdən bir neçə il öncə Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi (NİİM) yaradılıb:** "Mərkəzi yaratdılar, amma nəqliyyatı intellektual idarə edə bilmədilər. İndi-indi bu problemin aradan qaldırılması üçün addımlar atılır. Mərkəz nəqliyyatın intellektlə idarə edilməsinə cəhdlər edir. Ziya Məmmədov dövlətin milyonlarını bu mərkəzin yaradılması üçün xərclədi, amma ortaya yollarda əlavə kameralar və ekranlardan başqa bir şey çıxara bilmədilər. Lazım olan anda düyməni basıb nəqliyyatı intellektlə idarə edə bilmirlər. Azərbaycan kosmosa peykini çıxarıb. Ölkəmizdə GPS sistemi daha mükəmməl və işlək olmalıdır. Qanunlara dəyişikliklər texnologiyaların tətbiqini nəzərdə tutduqda bu məsələyə bir qədər ləng, həvəssiz yanaşırlar. Qeyri-ciddi münasibət son nəticədə qəzaların qarşısının alınmasında problemlərin həll olunmamasına gətirib çıxarır. Qanuna dəyişikliklər vaxtında edilir, amma icrası təmin edilmir ki, insanlar qəzalarda dünyalarını dəyişməsinlər. Məsələn, şəhərlərarası və rayonlararası marşrutlarda hərəkətdə olan avtobusda taxoqraf quraşdırılsa və sürücünün sükan arxasında neçə saat keçirməsi, avtobusu neçə kilometr saatla hərəkət etdirməsini real onlayn rejimdə izləmək olar. Əlbəttə ki, bunun üçün ilk növbədə yeni texnologiyaların tətbiqinin süngü ilə qarşılanmasını kənara qoymaq vacib şərtdir".

**Taxoqraf nədir?**

Taxoqraf - avtomatik rejimdə nəqliyyat vasitəsinin sürətinin, yürüşünün və hərəkət vaxtının ölçülməsi, qeyd edilməsi və göstərilməsi üçün lazım olan texniki bort qurğusudur. Taxoqraf həmçinin sürücünün əməyə və ya istirahətə sərf etdiyi vaxtın təsbit edilməsi üçün nəzərdə tutulub. O, demək olar ki, avtomobilin, qeydiyyat proseslərinin avtomatlaşdırılması zamanı yardımçı olan, müxtəlif məlumatları yaddaşda saxlayan və ötürən "qara qutudur".

**"Beynəlxalq avtomobil daşımaları həyata keçirən nəqliyyat vasitələri ekipajının işinə aid Avropa razılaşmasının" 3821/85 saylı direktivində deyilir:**

- Taxoqraf - NVAR-nın NVAR razılaşmasının NVAR sənədlərində razılaşdırılmış parametrlərinin daimi, müstəqil və obyektiv, NVAR razılaşmasının tələblərinin pozulmasına görə cəzadan yayınmağın qarşısının alınmasını və NVAR razılaşmasında iştirak edən bütün tərəflərin bərabər hüquqlara sahib olmasını təmin edəcək şəkildə həyata keçirilməsi üzrə tələblərinin yerinə yetirilməsini təmin edən nəzarət qurğusudur. Taxoqraf anlayışında təyinedici amil nəzarət prinsipləridir: daimi, müstəqil, obyektiv və cəzadan yayınmağın qarşısını alan. Böyük əhəmiyyət kəsb edən prinsiplə məhz son iki prinsipdir - obyektivlik və cəzadan yayınmağın qarşısının alınması. Taxoqraflar beynəlxalq daşımalarda istifadə olunduqları və müxtəlif ölkələrin ərazisində nəzarətdən keçirildikləri, istismarı isə müxtəlif milliyyətdən olan sürücülər tərəfindən həyata keçirildiyi üçün cihazın ünsiyyət interfeysi milli interfeys deyil - yəni taxoqrafda bu və ya digər dövlətin dili deyil, piktoqramlar istifadə olunur. Piktoqram - iş, hadisə və komanda rejimlərinin, istifadəçiyə bu cihazda bundan öncə quraşdırılmış ünsiyyət dilini bilmədən də, cihazı idarə etməyə imkan verən qrafik təsvirləridir.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

## Bakıda minik avtomobili aşıb, bir ailənin 5 üzvü ağır xəsarət alıb

**Bakıda 5 nəfərin xəsarət alması ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib.**



APA xəbər verir ki, qəza Qaradağ rayonu ərazisində Lökbatan-Sahil qəsəbəsi avtomobil yolunda qeydə alınıb.

"Lada Priora" markalı avtomobil qarşıdakı avtomobili ötmək istəyərkən sürücü idarəetməni itirib. Nəticədə avtomobil yoldan çıxaraq aşıb. Avtomobildə olan 5 nəfər ağır bədən xəsarətləri alıblar. Hadisə şahidlərinin bildirdiyinə görə, yaralılardan 3 nəfəri azyaşlıdır.

Onların bir ailənin üzvü olduğu bildirilir.

## Yevlaxda "VAZ 2115" "Şaqman"a çırpılıb, 4 nəfər yaralanıb

**Bakı-Qazax magistralının Yevlax rayonunun Aran qəsəbəsindən keçən hissəsində ağır yol qəzası baş verib.**



APA-nın yerli bürosunun məlumatına görə, "VAZ 2115" markalı minik avtomobili yük avtomobilinə çırpılıb.

Hadisə nəticəsində 4 nəfər müxtəlif dərəcəli bədən xəsarəti alıb və Yevlax rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib.

Faktla bağlı araşdırma aparılır.

Qəza nəticəsində xəsarət alanlar:

- 1982-ci il təvəllüdlü Gədəbəy rayon sakini Cəfərov Azər Hüseyin oğlu
- Şəmkir rayon sakini Musayev Elcan Azər oğlu
- 1999-cu il təvəllüdlü Şəmkir rayon sakini Əmrahov Səməndər Niyaməddin oğlu
- 1979-cu il təvəllüdlü Şəmkir rayon sakini Hüseynova Arzu Nəsrəddin qızı.

Yaralılar xəstəxanaya yerləşdiriliblər. Onlardan Arzu Hüseynovanın durumu daha ağır qiymətləndirilir.

YENİ MÜSAVAT
N 148 (7318) 16 iyul 2019

# Mingəçevirdə toyda dava düşdü, bir nəfər bıçaqlandı

**Mingəçevirdə toyda düşən kütləvi dava zamanı bir nəfər bıçaqlanıb.**

APA-nın Mingəçevir bürosunun məlumatına görə, hadisə "Sevgi" şadlıq sarayında keçirilən toy mərasimində baş verib.

Mübahisə bir qrup arasında kütləvi dava ilə nəticələnib və 1991-ci il təvəllüdlü Məmmədov Röyal Məcnun oğlu kürək nahiyəsindən bıçaqlanıb.

Daha bir neçə nəfər yüngül xəsarət alıb.

Faktla bağlı araşdırma aparılır.

# 2018-ci ilin şok boşanma statistikası - 15 minə yaxın ailə dağılıb

**Azərbaycanda 1991-2018-ci illərdə qeydə alınan boşanmaların sayı açıqlanıb.**

Dövlət Statistika Komitəsindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, 1991-2018-ci illər aralığında ölkədə 241 621 boşanma qeydə alınıb.

Statistikaya nəzər saldıqda, son illərdə boşanmaların sayında artım müşahidə olunur.

Belə ki, Azərbaycanda 1991-ci ildə 10679, 1992-ci ildə 9465, 1993-cü ildə 6564, 1994-cü ildə 6256, 1995-ci ildə 5669, 1996-cı ildə 5598, 1997-ci ildə 5806, 1998-ci ildə 5657, 1999-cu ildə 5013, 2000-ci ildə 5478, 2001-ci ildə 5382, 2002-ci ildə 5738, 2003-cü ildə 6671, 2004-cü ildə 6914 boşanma qeydə alınıb.

Ölkədə 2005-ci ildə 8895, 2006-cı ildə 7817, 2007-ci ildə 8340, 2008-ci ildə 7933, 2009-cu ildə 7784, 2010-cu ildə 9061, 2011-ci ildə 10747, 2012-ci ildə 11087, 2013-cü ildə 11730, 2014-cü ildə 12088, 2015-ci ildə 12764, 2016-cı ildə 13114, 2017-ci ildə 14514 və 2018-ci ildə isə 14857 boşanma baş verib.

Azərbaycanda ən az boşanma 1999-cu ildə (5013), ən çox boşanma isə 2018-ci ildə (14857) qeydə alınıb.

# Rusiyada "siçan qızdırması" tüğyan edir: yüzlərlə insan yoluxub

**Rusiyanın Saratov şəhərində yerli əhali arasında böyrək sindromu ilə hemorragik qızdırma infeksiyası yayılıb.**

Yerli əhalinin "siçan qızdırması" adlandırdığı bu infeksiyaya 850 adamın yoluxduğu bildirilir.

Musavat.com bu barədə Rusiya mətbuatına istinadən məlumat verir.

Xəstəliyin əsas daşıyıcısı gəmiricilər, xüsusilə də siçanlar olduğu üçün yerli əhali tərəfindən bu şəkildə adlandırılır.

Ekoloq Olqa Abrosimova təsdiqləyir ki, xəstəliyin kəskinləşməsi siçanların artan populyasiyası ilə müşayiət olunur. Bu da öz növbəsində qışda hökm sürən sərt hava şərtləri ilə əlaqədardır. Qalın qar örtüyü siçanabənzər gəmiricilərin artımı üçün münbit şərait yaradıb.

Həkimlərin bildirdiyinə görə, xəstəlik ağır keçir, yüksək hərarət, ürək bulanması, zəiflik və əzələ ağrıları ilə müşayiət olunur.

Həmçinin xəstəliyin ilkin əlamətləri kəskin dövrün keçməsindən sonra da qala bilir. Tez-tez ağızda quruluq və əllərin keyləşməsi baş verir.

Siçan qızdırmasından sonra orqanizm gec bərpa olunur. Həkimlər məsləhət görürlər ki, il ərzində böyrəklər güclü nəzarətdə saxlanılmalı və vaxtlı-vaxtında analizlər verilməlidir.

Bölgədəki vəziyyəti Saratov vilayət başçısı Valeri Radayev öz nəzarətinə götürdüyünü bildirib.

Yerli mətbuatın verdiyi məlumata görə, infeksiyaya yoluxan 850 sakindən 150-si xəstəxanada həkim müşahidəsində müalicə olunur, bir nəfər qadının isə öldüyü bildirilir.

❑ **MƏLEYKƏ,**
**Musavat.com**

# Hüseyn Abdullayevin facebook səhifəsində canlanma

## Sabiq deputatın məhkəməsindən bir xəbər olmasa da, sosial şəbəkədəki səhifəsi aktivləşib

**Facebookda sabiq deputat, hazırda həbsdə olan Hüseyn Abdullayevin səhifəsində yeni paylaşımlar edilib. Sabiq deputatın fotosuna şərhlər yazılır, onun azadlığa çıxması ifadə olunan arzularla bağlı qeydlər aparılır. Sabiq deputatın 2018-ci ildən yenilənməyən səhifəsinə birdən-birə bu cür marağın artmasının səbəbi aydın deyil. Mümkündür ki, Hüseyn Abdullayevin personasına diqqət onun işi üzrə məhkəmə xəbərlərindən qaynaqlanır.**




Sabiq deputatın cinayət işi bu ilin aprelində Bakı Hərbi Məhkəməsinə daxil olub. Cinayət işinin baxılması üçün Hərbi Məhkəməyə göndərilməsi təsadüfi deyil. İş üzrə sabiq deputatla birgə ittiham edilən 9 nəfərdən 8-i Dövlət Sərhəd Xidmətinin əməkdaşları, digər 1 şəxs isə Hüseyn Abdullayevin anası Zeynəb Abdullayevadır. Hüseyn Abdullayevə ümumilikdə 14, təqsirləndirilən hərbçilərə 8, sabiq deputatın anası Zeynəb Abdullayeva isə 3 maddə ilə ittiham elan olunub. Cinayət işi üzrə zərərçəkmiş şəxs qismində 30 nəfər tanınıb. Hakim qarşısına DSX hərbçiləri Həbib İbrahimov, Xalid Əliyev, Namiq Babayev, İntiqam Süleymanov, Pərviz Kazımov, Nazim Əliyev, Zaur Quliyev və sabiq deputatın anası çıxarılıblar. Cinayət işinə hakim Həbib Həsənovun sədrliyi ilə baxılır.

Qeyd edək ki, Vergilər, Daxili İşlər nazirlikləri və Baş Prokurorluğun birgə məlumatına görə, "Araz İNC" MMC-də 1 milyon 436 min manat məbləğində vəsaitin dövlət büdcəsinə ödənməməsi faktı üzrə 7 iyun 2013-cü il tarixdə Cinayət Məcəlləsinin 213.2.2-ci (vergi ödəməkdən yayınma) maddəsi ilə cinayət işi başlanıb. Cəmiyyətin fəaliyyətinə faktiki rəhbərlik etmiş Hüseyn Abdullayev iş üzrə təqsirləndirilən şəxs qismində cəlb edilib, Azərbaycan ərazisindən kənarda istintaqdan gizləndiyi üçün barəsində məhkəmə qərarı əsasında həbs qətimkan tədbiri seçilməklə "İnterpol" xətti ilə beynəlxalq axtarış elan olunub. 3 oktyabr 2016-cı il tarixdə Hüseyn Abdullayevə ümumilikdə 1 milyon 810 min manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırması və xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq almadan tikinti-quraşdırma işlərini həyata keçirərək 966 min manat məbləğində gəlir əldə etməsinə əsaslı şübhələr müəyyən edildiyindən Cinayət Məcəlləsinin 192.2.2 (qanunsuz sahibkarlıq) və 213.2.2-ci maddələri ilə yenidən ittiham elan edilməsi barədə qərar çıxarılıb. Təqsirləndirilən şəxs Hüseyn Abdullayev Türkiyə ərazisində tutularaq 22 aprel 2018-ci il tarixdə Azərbaycanın hüquq-mühafizə orqanlarına təhvil verilib. Bundan başqa, ayrı-ayrı vətəndaşların Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə daxil olmuş müraciətləri əsasında 14 fevral 2018-ci il tarixdə başlanmış cinayət işi üzrə Hüseyn Abdullayevin 2006-cı ildən 2018-ci ilədək olan müddət ərzində faktiki nəzarət etdiyi "Araz-İnşaat" ASC-də onun tapşırığına əsasən müəssisənin idarə olunmasını həyata keçirən Namiq Babayev və digər təqsirləndirilən şəxslərlə qabaqcadan əlbir olan bir qrup şəxs halında cəmiyyətə məxsus obyektləri müxtəlif vaxtlarda ayrı-ayrı şirkətlərə icarəyə verərək ümumilikdə 1 milyon 374 min manat məbləğində gəlirlərin cəmiyyətin kommunal xidmət və sair xərclərinin ödənilməsinə sərf olunmasına dair digər səhmdarlara yalan məlumat verməklə 13 min 373 manat məbləğində dividendləri vahid qəsdlə ələ keçirib zərərçəkmiş şəxslərə xeyli miqdarda maddi ziyan vurmaqla dələduzluq etməsinə şübhələr müəyyən edilib. Eləcə də Hüseyn Abdullayevin dəfələrlə Namiq Babayev vasitəsilə, daha sonra isə Almaniyadan istifadəsində olan telefondan "Autist Uşaqların Reabilitasiyasına Kömək" İctimai Birliyinin sədri Elnur Məmmədova zəng edərək onun və ailə üzvlərinin ünvanına nalayiq ifadələr işlədib, tələblərinə əməl etməyəcəyi halda onları məhv edəcəyi ilə hədələyərək icarə müqaviləsi şərtlərinə görə hər ay ödəməli olduğu 3 min manat icarə haqqı əvəzinə onun nümayəndələrinə 6 min manat pul ödəməsini hədə-qorxu ilə tələb etməsinə əsaslı şübhələr müəyyən edilib.

❑ **E.HÜSEYNOV**
**"Yeni Müsavat"**



# Azərbaycan vətəndaşı Moskvada 1 tondan çox qara kürü ilə yaxalandı

**Rusiyada polis Federal Təhlükəsizlik Xidmətinin əməkdaşları ilə birlikdə Moskvanın Jukovsk aeroportunda əməliyyat keçirib. Bu zaman qaçaqmalçılıq yolu ilə adıçəkilən ölkəyə keçirilməsinə cəhd göstərilən 1 ton-dan yuxarı qara kürünü ələ keçirib.**

Virtualaz.org TASS-a istinadən xəbər verir ki, bu haqda Mərkəz federal dairəsi üzrə DİN Nəqliyyat İdarəsi məlumat yayıb.

"Polis əməkdaşları FTX ilə birlikdə əməliyyat-axtarış tədbiri həyata keçirərək Jukovsk aeroportunun yük terminalında qaçaqmal şəklində qara kürü partiyasını aşkar edib. Qeyri-leqal yük MDB respublikalarından birindən gündəlik tələbat malı adı altında gətirilib. Federal balıqçılıq agentliyinin apardığı araşdırmaya görə, baqaj bölməsində cəmi 1020 kq ağırlığında və 29.5 milyon rubl dəyərində nərə cinsindən balıq kürüsü olub", - məlumatda deyilir.

İstintaqın məlumatına görə, qaçaqmalı iki xarici vətəndaş - 30 yaşlı Çin və 60 yaşlı Azərbaycan vətəndaşı təşkil edib. Onlar kürünü Rusiya ərazisində satmağı planlaşdırıblar. Həmin şəxslərdən biri Rusiya ərazisində olub və vəzifəsi saxta malı qəbul edib satılmaq üçün dostuna ötürmək idi. Həmin şəxslərin hər ikisi saxlanılıb. "Bu vətəndaşlara qarşı xüsusilə iri ölçüdə strateji mühüm resursu Rusiya ərazisinə keçirməyə cəhd" ittihamı ilə cinayət işi qaldırılıb.

**Bakı Apelyasiya Məhkəməsində hakim Vüqar Həsənovun sədrliyi ilə olduqca mübhəm bir işə baxılacaq. Məsələnin mahiyyəti budur ki, Bakı sakini Kamil İsmayılovun atası rəhmətə gedəndən sonra ondan miras qalan əmlakları anası Gülbəniz İsmayılova öz adına rəsmiləşdirib.**

# Bakı Apelyasiya Məhkəməsində mübhəm mülk davası

## Binəqədi Məhkəməsinin arxivindən sənədlərin oğurlanması haqda ciddi iddialar var



Bundan əlavə, 2007-ci ildə məhkəmə qətnaməsi ilə Kamil İsmayılovun sənədlə mülkü olan evinə belə göz dikiblər: “Rəsulzadə qəsəbəsi, Cəfər Xəndan küçəsi, 12 A saylı mülk 12 il əvvəl məhkəmə qətnaməsi əsasında mənim mülkiyyətimə verilib. Hələ 2007-ci ildə anam Binəqədi Rayon Məhkəməsinin bu haqda qətnaməsini alıb. Həmin qətnamə üzrə mülk mənə anam Gülbəniz İsmayılovanın iştirakı ilə təhvil verilib. Həmin vaxt məhkəmə sənədlərində də bu öz əksini tapıb. Lakin bu gün biz Bakı Apelyasiya Məhkəməsində böyük bir cinayətlə üz-üzə qaldığımızı görürük. Deməli, 11 il sonra Binəqədi Məhkəməsi qətnamə çıxarıb. Həmin qətnamə alınandan 1 ay müddətində şikayət vermə müddəti var. Həmin müddətin bərpa olunması üçün böyük bir cinayət törədilib. Apelyasiya şikayəti verilməsi üçün arxivə girib anamın şikayət verməsi üçün onun qətnaməni almasını təsdiq edən sənədləri aradan çıxarıblar. Hansısa yolla Binəqədi Rayon Məhkəməsinin arxivinə yol tapıblar, qətnamənin anama təqdim olunmasını təsdiq edən sənədləri - məktub, qəbz, xəbərnamə, zərfi yoxa çıxarıblar, bunu hüquq-mühafizə orqanları araşdırmalıdır. İşin içindəki sənədlərin siyahısına əlavə məlumatlar daxil edilib. Həmin əlavəyə 1 il əvvəl Binəqədi Rayon Məhkəməsində hakim Kamran Əsədovun katibi vəzifəsinə işə götürülən Tural Bayramov imza atıb. Siyahıya əlavəni isə arxiv müdiri Ruslan Adıgözəlov edib. Bunu ona görə ediblər ki, apelyasiya şikayəti verilməsi üçün əsas yaransın. Böyük bir cinayətə yol verməklə belə bir şikayət ediblər. Mən ədliyyə naziri Fikrət Məmmədovdan, baş prokuror Zakir Qaralovdan xahiş edirəm ki, Binəqədi Rayon Məhkəməsinin arxivində baş verən böyük qanunsuzluqlarla bağlı ölçü götürsünlər. Bu adamlar belə qanunsuzluqlar etməklə, Azərbaycan məhkəməsinin adına xələl gətirirlər, bütövlükdə məhkəmələrdə çıxarılmış qətnamələri şübhə altına alırlar”.

**Kamil İsmayılov deyir ki, G.İsmayılova tərəfindən verilmiş apelyasiya şikayəti 11 il sonra - 27 iyun 2018-ci ildə Binəqədi Rayon Məhkəməsinə daxil olub, baxılması üçün mülki işlərlə birlikdə Bakı Apelyasiya Məhkəməsinə göndərilib:** “Mən ötən il keçirilən prosesdə hakimlərin diqqətinə çatdırdım ki, məhkəmə qətnaməsi çıxarıldıqdan 11 il sonra cavabdeh G.İsmayılova tərəfindən apelyasiya şikayətinin verilməsi qanunsuzdur. Çünki 11 il əvvəl qətnamə çıxarılarkən anam və atam Ənvər İsmayılov qətnamə ilə razılaşıblar. Qətnamə qəbzinə imza edilməklə valideynlərim tərəfindən qəbul edilib. Lakin bu barədə xəbərnamə, qəbz iş materiallarından çıxarılaraq mülki iş yenidən siyahı alınıb və siyahıda həmin qətnamə göstərilməyib.

Mənim bu izahatımdan sonra məhkəmə şikayəti geri qaytardı. Çünki Mülki Prosessual Məcəllənin 360-cı maddəsinə əsasən, apelyasiya şikayəti məhkəmə qətnaməsi rəsmi qaydada verildiyi gündən bir ay müddətinə verilə bilər. Eyni zamanda məhkəmə bu qənaətə gəlib ki, G.İsmayılova məhkəmə qətnaməsini 6 iyun 2018-ci il tarixində təkrarən alıb. Bu hal da apelyasiya şikayətinin verilməsi üçün buraxılmış prosessual müddətin bərpa edilməsi üçün əsas ola bilməz. İş materiallarında qətnamənin alınmasına dair poçt xəbərnamələrinin sıralandığı səhifələrə nəzər yetirdikdə müəyyən olunur ki, orada 118 nömrəli səhifə çıxarılıb. Şikayət geri qaytarılandan sonra Binəqədi Rayon Məhkəməsində sənədlərin itirilməsi ilə bağlı şikayətimi davam etdirmədim. Düşündüm ki, qanunsuzluq dövlət qurumları tərəfindən nəzərə alınar və cinayəti etmiş şəxslər cəzaya çatdırılar. Amma belə aydın olur ki, səhvə yol verib qanunsuzluğun araşdırılmasını, həmin qanunsuzluğun icraçıları ilə yanaşı sifarişçilərinin də cəzaya çatdırılmasını tələb etməli idim. İndi səhvimi düzəltmək qərarını vermişəm. Məhkəmə qərar çıxardıqdan sonra G.İsmayılova Binəqədi Rayon Məhkəməsinin qərarından apelyasiya şikayəti verib. Halbuki əvvəlki qərarda hər şey çox aydın şəkildə yazılıb”.

**Kamil İsmayılov bir daha hüquq-mühafizə orqanlarının rəhbərlərinə müraciət etməklə ona qarşı törədilən qanunsuzluqların araşdırılmasını istəyib.**

❑ **E.MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

# İstilər yenidən qayıdır

## Bu gündən temperaturun tədricən yüksəlməsi müşahidə ediləcək

**Artıq bir neçə gündür ki, ölkədə iyul ayı üçün xarakterik olmayan hava şəraiti hökm sürməkdədir. Hətta bəzi yerlərdə intensiv leysan yağıb. Ən çox yağıntı Böyük Qafqazda - Balakən, Zaqatala, Qax və Şəkidə qeydə alınıb. Təbii ki, yay mövsümünün ən isti aylarından biri olan iyulda bu cür hava şəraitinin mövcud olması təəccüblə qarşılanır. Ekspertlər də qeyd edir ki, iyulda nisbətən belə sərin hava mövcud olması bu ay üçün səciyyəvi deyil. Belə ki, adətən iyulda havanın temperaturu adətən 40 dərəcə, hətta daha artıq olur. Məsələn, 2010-cu il iyulun 12-də və 2011-ci il iyulun 22-də Bakıda temperaturun maksimum həddi 40 dərəcə olub. 2018-ci il iyulun 1-də Bakıda anomal isti hava şəraiti müşahidə edilib. Həmin gün havanın maksimal temperaturu 42.7 dərəcə isti təşkil edib ki, bu da rekord həddini, yəni mütləq maksimumu keçib.**



Mütəxəssislər qeyd edir ki, Bakıda iyul ayında ən sərin hava 1918-ci ildə, ayın 30-da qeydə alınıb. Belə ki, həmin gün havanın minimal temperaturu 12.2 dərəcə isti olub.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin məlumatına görə, temperaturun nisbətən aşağı düşməsinə səbəb 29 iyun axşam saatlarından başlayaraq, ölkəyə Qara dənizdən hərəkət edən soyuq hava cərəyanlarının daxil olmasıdır.

Bəs bu cür hava şəraiti nə zamana qədər davam edəcək?

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin məlumatına görə, isti hava şəraiti yenidən qayıdacaq. Belə ki, qurumun baş hidroloqu Asif Verdiyev mətbuata açıqlamasında bildirib ki, temperatur 32 dərəcəyədək qalxacaq. Havanın temperaturunun tədricən yüksəlməsi iyulun 16-dan etibarən də müşahidə ediləcək.

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

# Məhkəmə efirdə söyüş söyən müğənnilərlə bağlı qərar verdi

## Rəşad İlyasov və Rüfət Axundov barələrində çıxarılan qərarla bağlı danışmaq istəmədilər

**Bir müddət bundan əvvəl “Space” televiziyasının canlı efirində söyüş ifadələri səsləndirən əməkdar artist Rəşad İlyasov və müğənni Rüfət Axundov barəsində Bakı Apelyasiya Məhkəməsi qərar verib. Publika.az saytının verdiyi məlumata görə, məhkəmədə xüsusi ittihamçı Rahim Sadıqlının şikayəti üzrə qərar elan edilib. Qərara görə, şikayət təmin olunmayıb.**





Qeyd edək ki, xüsusi ittihamçı Rahim Sadıqlı Yasamal Rayon Məhkəməsinin çıxardığı qərardan narazı qalıb və apelyasiya şikayəti verib. Bakı Apelyasiya Məhkəməsinə müraciət edən Rahim Sadıqlı hər iki müğənninin həbs edilməsini istəyib.

Yasamal Rayon Məhkəməsində hakim Hüseyn Səfərovun sədrliyi ilə baş tutan prosesdə qərar elan edilib. Qərara görə, Rəşad İlyasov və Rüfət Axundova qarşı xüsusi ittiham qaydasında verilmiş şikayət əsassız olduğundan məhkəmə tərəfindən icraata qəbul edilməyib.

Qeyd edək ki, xüsusi ittihamçı olan vətəndaş Rahim Sadıqlının nümayəndəsi bundan əvvəl keçirilən prosesdə qeyd edib ki, “Space TV”də “Hər səhər” verilişində qeyri-etik ifadələr səsləndirilib. O, hər iki şəxsin cinayət məsuliyyətinə cəlb edilməsini və onların hər birinin 6 ay müddətinə azadlıqdan məhrum olunmalarını istəyib.

Xatırladaq ki, aprelin 5-də “Space TV”də “Hər səhər” verilişində müğənni Rüfət Axundovla Rəşad İlyasov qonaq olub.

Milli Televiziya və Radio Şurasının (MTRŞ) yaydığı məlumata əsasən, Rəşad Axundov mahnı oxuyarkən dəfələrlə qeyri-etik ifadələrdən istifadə edib. Kanalın efirində getmiş ədəbsiz söz və ifadələr şura tərəfindən aparılan monitorinqlər zamanı aşkar olunub. MTRŞ aprelin 5-də kanal rəhbərliyinin iştirakı ilə İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, 5-8 min manat cərimə olunmasına dair protokol tərtib edib.

Həmçinin televiziya və radio rəhbərlərinə şifahi xəbərdarlıq edilərək ki, Rüfət Axundovun efirə çıxmasına məhdudiyyət qoyulub.

**Rəşad İlyasovun vəkili Şahmar Məmmədov məhkəmənin verdiyi bu qərarın tam ədalətli olduğunu deyib. “Yeni Müsavat”ın əməkdaşı əməkdar artistlə əlaqə saxlamağa çalışıb. Müğənni açıqlamasında bu barədə danışmağa müsaid olmadığını deyib:**

“Bu barədə danışmağa müsaid deyiləm, çünki çəkilişlərdəyəm”. Qeyd edək ki, əməkdar artisti çəkilişlərdə olduğunu desə də, solisti olduğu AzTV-nin efirində ona qarşı qadağa qoyulub. Belə ki, televiziyanın Bədii Şurasının verdiyi qərara əsasən məlum davranışına görə müğənni 6 ay müddətinə “Yaradanlar və yaşadanlar” verilişindən, həmçinin televiziyanın efirindən uzaqlaşdırılıb.

**Müğənni Rüfət Axundov da əməkdaşımıza açıqlamasında sonuncu məhkəmə ilə bağlı danışmaq istəmədiyini bildirdi:**

“Ümumiyyətlə, bu haqda danışmaq istəmirəm, bu yöndəki suallara cavab vermirəm”.

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
Son səhifə
N 148 (7318) 16 iyul 2019

# Coca Colanı təcrübədən keçirdi, həyatı "qaraldı"...

Los Anceles sakini Corc Prior bir ay ərzində on banka "Coca Cola" içkisi içib. O, bununla həmin içkinin səhhətinə necə təsir göstərəcəyini ölçmək istəyib. Bu barədə lenta.ru saytı "The Daily Mirror"a istinadən xəbər verir. 50 yaşlı kişi bildirib ki, onu xüsusən də sözügedən içkinin tərkibindəki şəkər dozasının orqanizmə göstərdiyi təsir maraqlandırır. Eksperimentin sonlarına yaxın Prior qeyd edib ki, 76 kilodan 86 kiloya qədər kökəlib. Kişinin arterial təzyiqi isə 129/77-dən 145/96-ya qədər yüksəlib.

Belə səbəbdən insanlarda ciddi ürək xəstəlikləri və insult riski yüksəlir. Piror qeyd edib ki, bir müddət keçəndən sonra onda həmin içkiyə qarşı ciddi asılılıq yaranıb. Bundan başqa, "nəsə şirin bir şeylər yemək" ehtiyacı da get-gedə artıb. O, daha öncə belə hal yaşamadığını qeyd edir. Bununla yanaşı, amerikalı qeyd edib ki, o bu təcrübə ilə insanları yedikləri şəkərin onlara nə qədər ziyan vurması barədə düşünməyə sövq etmək istəyib. 100 qram miqdarındakı "Coca Cola"da 10.2 qram şəkər var. Kampaniyanı bir neçə dəfə tərkibində çox şəkər olduğuna görə ittiham ediblər.






## 60 il boyunca beyninin yarısı olmadan yaşadı

Moskvalı həkimlər 60 il boyunca beyninin yarısı olmadan yaşayan bir xəstə kəşf ediblər. Təqaüdçü xəstəxanaya kəskin baş ağrıları ilə müraciət edib. Raidoloqlar ona kompüter tomoqrafiyası edəndə şoka giriblər. Məlum olub ki, işemik atakaların baş verdiyi bölgədə beynin bir hissəsi mövcud deyil. Sol yarımkürənin yerinə qara bir deşik özünü göstərib.

Həkimlər müəyyənləşdiriblər ki, beynin inkişafındakı qüsur hələ o, ana bətnində olarkən baş verib. Uşaq dünyaya beyninin bir yarımkürəsi ilə dünyaya gəlib. Sözügedən yarımkürə digər yarımkürənin də funksiyasını öz üzərinə götürüb. Amma bu qüsurlara baxmayaraq, o, məktəbi qurtarıb, orduda xidmət edib, ali təhsil alıb və bütün həyatı boyu Moskvaətrafı zavodlardan birində mühəndis olaraq çalışıb. "Bu anomaliyaya baxmayataq, onun nə görmə, nə də psixi sahədə hər hansı problemi olub", - bunu da həkim bildirib.

Kişi əlavə müayinədən və üzərində hər hansı araşdırma aparılmasından imtina edib, xəstəxananı tərk edib. O deyib ki, "mən bu günə qədər normal həyat tərzi keçirmişəm və məni heç nə narahat etməyib. Və mənə indi əlavə şan-şöhrət lazım deyil".

# Ata qızını xilas etdi, özü öldü

Amerikanın Florida ştatında bir kişi qızını xilas edərkən dünyasını dəyişib. Lenta.ru saytı xəbər verir ki, 46 yaşlı Tomas Zakrevski ailəsi ilə birlikdə Florida sahillərindəki adalardan birində istirahət edirmiş. Bir neçə adam, o cümlədən uşaqlar sahildə oynadıqları vaxt güclü dalğa özünü göstərib və bu zaman bir kişi 8 yaşlı qızı ilə sudan çıxmağa macal tapmayıb. Güclü fırtına onların hər ikisini dənizin dərin yerlərinə atıb. Qızın anası polisə danışıb ki, qohumlarını görüb və dərhal qızı ilə ərinin onların arasında olmadığını fərq edib. Qadın geriyə doğru çevriləndə isə görüb ki, əri ilə qızı dalğa ilə mübarizə aparır. O, dərhal kömətə gəlib. Əri çətinliklə saxladığı uşağını həyat yoldaşına verib və bundan sonra dalğalar onu dərinliyə atıb. Üç saat sonra isə xilasedicilər kişinin meyidini onu axırıncı dəfə gördükləri yerdən 800 metr aralıda tapıblar.



## Bu otaqlarda 1 saat yatmaq 5 dollardır

Yaponiyada yorğun və yuxu həsrətində olan şəxslərin yatması üçün yuxu otaqları istifadəyə verilib. Otellərdən fərqli olaraq, insanlar bu otaqlarda bir və ya bir neçə saat qalaraq həmin müddətin pulunu ödəyirlər. Yuxu otaqlarına müraciət edənlərin böyük əksəriyyətini evində azyaşlı uşağı olan şəxslər təşkil edir. Onlar gecə saatlarında yuxuya həsrət qaldıqları və ofisdə də yata bilmədikləri üçün sözügedən xidmətdən maksimum istifadə edirlər. Bir saatlıq yuxu otağının məbləği 5 dollardır. Otaqlarda həzin musiqi, rahat atmosfer var. Hətta orada müştərilər bəlli saatdan sonra onları oyatmaq üçün xidmət sahibinə müraciət də edirlər. Bunun üçün əlavə 1 dollar məbləğində vəsait ödəmək lazımdır.

## Bunları bilirsinizmi?

*Avstraliyada uşaqların siqaret alması qadağan, çəkməsi isə sərbəstdir.

*Tarixin ən qısa savaşı İngiltərə ilə Zənzibar arasında olub. *Müharibə başlayandan 38 dəqiqə sonra Zənzibar təslim olub.

*"American Airlines" 1987-ci ildə menyusundan sadəcə 2 ədəd zeytunu çıxararaq 40 min dollar qazanc əldə edib.

*"Donald Duck" çizgi filminin qəhrəmanı olan ördək şalvar geyinmədiyi üçün Finlandiya televiziyalarında nümayiş etdirilmir.

*1666-cı ildə baş verən böyük London yanğınında şəhər tamamilə yanıb. Ancaq yanğın zamanı cəmi 6 nəfər yaralanıb.

*İngiltərə şahzadəsi Çarlz və Uilyam heç vaxt eyni təyyarədə səfər etmirlər. Səbəbi isə təyyarədə qəza baş verərsə, ölkənin eyni anda iki şahzadəsini itirməsinin qarşısını almaqdır.

*Bəzi ölkələrdə edam üsulu kimi istifadə edilən elektrik oturacağı diş həkimi icad edib.

*Dil insan bədənindəki ən güclü əzələdir.

*Kəpənəklər dadı ayaqları ilə hiss edirlər.

*Dəvəquşlarının gözləri beynlərindən böyükdür.

*Avstraliyada uşaqların siqaret alması qadağan, çəkməsi isə sərbəstdir.

*Taylandda alt paltarı geyinmədən gəzmək olmaz.

*Sinqapud metrosunda saqqız çeynəyənlər tutulur.

* Eyfel qülləsinin qurulmasında hər biri 6400 ton ağırlığında olan 18 mindən artıq dəmir istifadə olunub.

*Kişiləri ildırım vurma ehtimalı qadınlara nisbətən 6 dəfə çoxdur.

* Atakama səhrasına 400 ildə bir dəfə yağış yağır.

* İnsandakı damarların toplam uzunluğu 150 min kilometrdir.

## Facebook kişinin eyni vaxtda iki qadınla evli olduğunu üzə çıxarıb

İngiltərədə yaşayan Lisa Kurran adlı qadın 25 ildir evli olduğu ərinin başqa bir qadınla evli olduğunu öyrənib. Özü də facebook vasitəsilə. Ərinin açıqlamalarına inanmayan qadın çox keçmədən həqiqəti öyrənib və bütün həyatı alt-üst olub.



Lisa ərinin həmin qadınla evlənən zaman çəkdirdiyi toy şəkli ilə facebook sosial şəbəkəsində qarşılaşıb. Həyat yoldaşından şəkil haqqında soruşduqda əri ona keçmiş sevgililərindən birinin onu narahat etdiyini və saxta şəkil düzəltdirib facebookda paylaşdığını deyib. Ancaq ərinin sözlərinə inanmayan qadın xəfiyyə tutur. Dedektiv sayəsində Lisa ərinin artıq 6 ildir başqa bir qadınla birgə yaşadığını öyrənib.

Məlum olub ki, keçmiş polis məmuru 52 yaşlı Martin Kurran 31 yaşlı Andrea Vitesla 6 il öncə saxta nikahla evlənib. Aldadıldığı üçün Martini məhkəməyə verən iki uşaq anası Lisa Kurran eyni anda iki qadınla evli olduğu üçün ərinə cəza verilməsini tələb etsə də, məhkəmə kişini günahsız elan edib. Buna etiraz edən Lisa mətbuata açıqlama verərək ərinin həbs olunması gərəkdiyini deyib: "Özümü axmaq kimi hiss edirəm. Məndən başqa hər kəs Martinin necə bir insan olduğunu bilirmiş".

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.050